Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

19 APREL 2019-cu il

№ 70 (3968)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ALMANİYADA MÜHACİR MÜSAVATÇILARA CİNAYƏT İŞİNİN ƏSL MOTİVİ VƏ «AZƏRBAYCAN HAKİMİYYƏTİNİN CASUSLARI»...

səh. 6

Qarabağ münaqişəsinin həlli Rusiya-ABŞ gərginliyini də aradan qaldıra bilən faktora çevrilir - Yeni və inanılmaz nüanslar...

səh. 9

Beynəlxalq maliyyə sistemində manata inam və etimadın artdığına yeni sübutlar...

səh. 10

"Respublika Xatirə Kitabı" şəhidlərimiz haqqında daha bir layihəni yekunlaşdırdı

səh. 4

Ermənistanda anti-Paşinyan sosial inqilabın əlamətləri sürətlə yetişir

səh. 8

"Azərbaycan Dəmir Yolları"nda işçilər üç dəfəyədək ixtisar ediləcək (?) - Auditdən inanılmaz xəbər...

səh. 14

Bizim vəkillərimizin üzvlük haqqını ödəməmək problemi var

səh. 15

Bölgələrdə kosmetik əməliyyatın növbəti fəsadı - burun çürüdü...

səh. 15



## Prezident maaş və pensiyaların yeni artım anonsunu verdi - yerlərdə sadə insanların Prezidentin islahatlarını diqqətlə izlədiklərinə dair növbəti fakt...

səh. 2



Moskvadan sonra Vaşinqtonda Qarabağ görüş təşəbbüsü - prosesə təkan, ya Rusiyanın fəallaşmasına əks gediş...

səh. 3

Kənd təsərrüfatımız inkişaf edirsə - ət idxalının 17 faiz artımı anlaşılmaz paradoks kimi...

səh. 11



Azərbaycanın ümumtəhsil sisteminə qarşı təhlükəli kampaniyaçılıq əlamətləri...

səh. 13

"Bir kəmər, bir yol" iqtisadi layihəsində Azərbaycanın iştirakına niyə bu qədər önəm verilir...

səh. 3



Moskvada əldə olunmuş Qarabağ razılaşmaları həyata keçməsə... Rusiyanın özü də məsuliyyətdən yayına bilməyəcək...

səh. 5



Beynəlxalq Abidələri Müdafiə Günündə dünya Qarabağdakı erməni vandalizmlərinə susdu

səh. 7



İmamoğlunun mer mandatı və AKP-nin hakimiyyət perspektivləri barədə yeni müzakirələr...

səh. 5



Əmanətlərin dollarlaşma həddinə görə Azərbaycanın Qafqazda ən üstün yeri pis beynəlxalq qiymət alır...

səh. 11



## XİN başçılarının Moskva görüşü Qarabağ prosesini yerindən tərpətdi

*ABŞ Azərbaycan və Ermənistan XİN başçılarının növbəti görüşünün Vaşinqtonda keçirilməsini təklif etdi*



**ABŞ Azərbaycan və Ermənistan Xarici İşlər Nazirliyi (XİN) rəhbərlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə növbəti görüşünü Vaşinqtonda keçirməyi təklif edib.**

"Trend"in məlumatına görə, görüş təklifi barədə Azərbaycanın XİN rəhbəri Elmar Məmmədyarov bildirib.

XİN rəsmisi daha öncə Moskvada rusiyalı həmkarı Sergey Lavrov, eləcə də ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə Ermənistan XİN rəhbəri ilə keçirilən sonuncu görüşü də xatırlayıb.

Nazir deyib: "Demək olar ki, 30 ildir davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim səylərimizi diqqətə çatdırdım və qeyd etdim ki, biz bu məsələdə irəliləyişə nail olmalıyıq. Dünən ABŞ tərəfindən Vaşinqtona səfər etmək təklifi aldıq, burada da Dövlət katibi bu münaqişənin nizamlanmasına nail olmaq yolunda öz təkliflərini səsləndirəcək".

## Elmar Məmmədyarov: "Brüssel sammiti "Şərq tərəfdaşlığı" tarixində yeni bir səhifə olacaq"

**Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı vacib və faydalıdır. "Trend"in məlumatına görə, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib.**

O bildirib ki, "Şərq tərəfdaşlığı"nın 6 üzv ölkəsinin müxtəlif məramları var: "Bu illər ərzində bu təşəbbüsdə iştirak etməklə biz Aİ-ni daha yaxşı anlamağı öyrənirik. Hesab edirəm ki, Aİ də Azərbaycanı və "Şərq tərəfdaşlığı"nın digər üzvlərini daha yaxşı anlamağı öyrənir".

Nazir vurğulayıb ki, gələn ay "Şərq tərəfdaşlığı"nın Brüsseldə sammiti baş tutacaq və bu tədbir növbəti onillik üçün perspektivlərin müəyyənləşdirilməsində və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində yeni səhifə olacaq.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

**Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.**

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Prezident maaş və pensiyaların yeni artım anonsunu verdi - yerlərdə sadə insanların Prezidentin islahatlarını diqqətlə izlədiklərinə dair növbəti fakt...



**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olublar.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Neftçilər parkında yaradılan şərait barədə dövlət başçısına məlumat verib.

Qeyd edilib ki, bu istirahət parkı 1982-ci ildə salınıb. "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində ötən ilin martından parkda yenidənqurma işlərinə başlanıb. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində mədəniyyət və istirahət parkı yaradılıb. Digər 2 hektarlıq sahədə isə meşə zolağı salınıb və velosiped yolları çəkilib, işıqlandırma işləri görülüb. Bu istirahət məkanında "IDEA" İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman və futbol meydançaları salınıb, trenajorlar quraşdırılıb, uşaq və yeniyetmələrin əyləncəsi, asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif attraksionlar və oyun elementləri yerləşdirilib.

Dövlət başçısı və birinci xanım əvvəlcə burada istirahət edən sakinlər Zenfira Həsənova və Sübhanə Bayramova ilə görüşüb söhbət ediblər. Söhbətdən maraqlı bir detal:

Sübhanə Bayramova: "Qeyd etmək istəyirəm ki, tək parklar yox, ümumiyyətlə təhsil, səhiyyə müəssisələri yenidən qurulur, müasir avadanlıqla təchiz edilir, məhəllələrarası yollar təmir olunur, işıqlandırılır, su hövzələri bərpa edilir. Doğrudan da Sizin sərəncamlarınız əsasında çox böyük islahatlar gedir. Biz Sizə çox təşəkkür edirik".

Bu fakt sıravi insanlar tərəfindən Prezident islahatlarının diqqətlə izləndiyini sübut edir. Və ya bu fikrə baxaq:

Zenfira Həsənova:"Bir də onu demək istəyirəm ki, son üç ayda verdiyiniz fərmanlara görə Sizə çox təşəkkür edirik. Orada pensiyaları, maaşları və ən əsası da kredit problemini nəzərə almısınız. Buna görə də Sizə çox təşəkkür edirik".

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Milli Qəhrəman Cavanşir Rəhimovun abidəsini ziyarət ediblər.

Milli Qəhrəman Cavanşir Rəhimovun anası Lalə Rəhimova ilə söhbətdə Prezident deyib ki,

"Azərbaycanda digər sosial ödənişlər də artırılıb və biz daha da artıracağıq, çünki buna ehtiyac var. Biz minimum əməkhaqqını, minimum pensiyanı artırırıq. Ancaq daha da artırılmalıdır və artırılacaq. Hazırda iqtisadi vəziyyətimiz də, maliyyə vəziyyətimiz də yaxşıdır. Biz əlavə əldə edilmiş bütün gəlirləri vətəndaşların sosial müdafiəsinə yönəldəcəyik".

Bu isə şad xəbərin anonsudur.

# ABŞ-ın yeni Yaxın Şərq planı deyilən təzə müəmma ortaya atıldı

**ABŞ prezidenti Donald Trampın məsləhətçisi və kürəkəni Cared Kuşner "Əsrin anlaşması" adlandırılan Orta Şərq sülh planının Ramazan ayından sonra açıqlanacağını bildirib.**



Baki-xeber.com xəbər verir ki, Tramp administrasiyası planın detalları haqqında hələlik açıqlama vermək istəmir. Bununla yanaşı, planın detallarının əvvəlcədən açıqlanacağı bildirilir.

Fələstinlilər Tramp İsrailin xeyrinə qərarlar qəbul etdiyinə görə "Əsrin anlaşması" planına çox soyuq yanaşır. Ancaq Tramp administrasiyası hələ də Fələstin prezidenti Mahmud Abbasın planı dəstəkləyəcəyinə ümid edir.

**Keçmiş ABŞ prezidenti Barak Obama dövründə İsrail səfiri olmuş Şapiro planın Fələstinin tələblərinin yerinə yetirilməsindən uzaq olacağını, ancaq İsrail hökuməti tərəfindən qəbul edilə biləcəyini deyib.**

**ABŞ tərəfi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələri davam etdirmək üçün Vaşinqtonda görüşməyi təklif edib. Bu barədə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Varşavada keçirilən mətbuat konfransında bildirib.**

## ”Görərsiniz, Vaşinqtondan sonra Paris fəallaşacaq”

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlara münasibət bildirən XİN başçısı aprelin 15-də Moskvada keçirilmiş görüşü xatırladıb: "Bizə danışıqlarda irəliləyiş lazımdır. Deyə bilərəm ki, bu baxımdan elə də nikbin deyiləm, amma real danışsaq, səyləri ikiqat artırmaq lazımdır. Rusiya bunu edir, son görüşdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov da iştirak etdi. ABŞ-dan da təklif aldıq. ABŞ dövlət katibi də danışıqlarda irəliləyişə nail olunmasına töhfə vermək niyyətindədir".

Qeyd edək ki, həmsədr ölkə kimi ABŞ tərəflərin fərdi görüşünü təşkil etmək məsələsində Rusiyaya uduzur. Adətən belə təşəbbüslər Rusiya tərəfdən çox edilib. Politoloqlar Rusiyanın bu fəallığını münaqişənin onun təsir dairəsinə daha yaxın olması ilə izah edirlər. ABŞ-ın belə bir təşəbbüslə çıxış etməsi Rusiyanın aktivləşməsinə qısqanclıqdan irəli gəlir, yoxsa həqiqətən danışıqlar prosesini sürətləndirmək məqsədini güdür?

**Politoloq Zərdüşt Əlizadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada qeyri-adi nəsə görmür:** "Tərəflərin razılığa gəlməsi üçün ciddi təkanlar lazımdır. Bu təkanlar yoxdursa, görüşün məkan baxımından harada keçirilməsi elə də böyük önəm daşımayacaq. Münaqişə boyunca biz hər bir həmsədrdən belə cəhdləri görmüşük. Düzdür, Rusiya regiona yaxın olduğu üçün onun fəallığı daha çox nəzərə çarpır. Hesab edirəm ki, bu cür səylər həmin ölkələrin özü üçün üstünlük və imtiyazlar gətirir. Onlar da öz mənafeləri xatirinə bu imtiyazlardan istifadə etməyə çalışırlar. ABŞ baxdı ki, Rusiya fəallığı fonunda müəyyən imtiyaz əldə edir, buna görə də o da fəallaşdı. Görərsiniz, Vaşinqtondan sonra Paris fəallaşacaq. O da belə bir görüş təşəbbüsü irəli sürəcək. Hesab edirəm ki, bu, problemin həllini sürətləndirmək məqsədilə olunur. Burada hərə öz mənafeyini güdür".

"Tərəflər bununla nə imtiyazlar qazana bilərlər" sualına politoloqun cavabı belə oldu: "Rusiya istəyir ki, münaqişənin tənzimlənməsi onun əlində olsun və bundan maksimum mənfəət əldə etsin. Ermənistana silahı kreditlə verir, bununla da Azərbaycanı vadar edir ki, nağd pula ondan silah alsın. Bu alverdən milyardlarla pul qazanır. Gördünüz ki, Bolton da regiona səfər edəndə Paşinyana açıq dedi ki, silahı ABŞ-da alsın. 90-cı illərdə münaqişə başlayanda ABŞ-ın bölgəyə təsiri 0 faiz idi. Bu münaqişə sayəsində ABŞ həm Ermənistana, həm də Azərbaycana təsir imkanlarını artıra bildi. Fransa da bulanıq suda balıq tutmaqda pərgərdir. O da bütün dünyaya sübut etməyə çalışır ki, "əzabkeş" erməni xalqının hamisidir. Münaqişə boyunca da bu işlə məşğul olub. Bu baxımdan da Vaşinqtonun təşəbbüsündə yeni nəsə görmürəm".

# Moskvadan sonra Vaşinqtonda Qarabağ görüş təşəbbüsü - prosesə təkan, ya Rusiyanın fəallaşmasına əks gediş...

***Zərdüşt Əlizadə:** ”ABŞ baxdı ki, Rusiya fəallığı fonunda müəyyən imtiyaz əldə edir, buna görə o da fəallaşdı”*



***Məhəmmədəli QƏRİBLİ***

**Çin 2013-cü ildə Avrasiya ölkələri arasında infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyası elan edib. Daha əvvəl mövcud olmuş layihələri birləşdirən strategiya yerüstü və dəniz nəqliyyatı infrastrukturunun inkişafı vasitəsilə iqtisadiyyatın qloballaşdırılması və inteqrasiya proseslərinin gücləndirilməsi ideyalarına əsaslanır.**

Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur. Bunlar "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu"dur. Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir.

Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünə Qafqaz regionunda dəstək verən ilk ölkə olub. Bu baxımdan "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayır. Bu layihənin həyata keçirilməsi dünya mal dövriyyəsində inqilab edə bilər.

Bu arada, Prezident İlham Əliyev Çinin "Sinxua" agentliyinə müsahibəsində bildirib ki, Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. Onun fikrincə, iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var: "Mənim 2015-ci ildə Çinə səfərim zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu da var idi. Biz dəmir yolu infrastrukturumuzun müasirləşdirilməsinə sərmayə yatırırıq. Ötən ilin may ayında biz Xəzər dənizində 15 milyon ton yükaşırma qabiliyyətinə malik yeni beynəlxalq liman istifadəyə verdik. Ehtiyac olduğu təqdirdə onun imkanları 25 milyon tona qədər artırıla bilər. Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Çindən Avropaya və geriyə yük daşımaları üçün ən qısa nəqliyyat marşrutudur".

Dövlət başçısı onu da qeyd edib ki, "Bir kəmər, bir yol" təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə bilər.

Bütün bunlardan çıxış edərək Çin "Bir kəmər, bir yol" layihəsində Azərbaycanın roluna niyə bu qədər önəm verir? Ekspertlər bunu necə şərh edirlər?

**Sözügedən məsələyə aydınlıq gətirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənov bunu bir sıra amillərlə əlaqələndirdi:** "Məsələ ondadır ki, Çin istəyir yükləri qısa və təhlükəsiz yolla Avropaya çatdırsın. Mövcud alternativlər arasında Azərbaycan daha məqbuldur. Yeni Azərbaycan üzərindən daşınmalar həmin tələblərə cavab verir. Bu səbəbdən Azərbaycan Çinin maraq dairəsinə daxildir və "Bir kəmər, bir yol" layihəsində ölkəmizə xüsusi önəm verir. Çünki Azərbaycan beynəlxalq yükdaşımalarda kifayət qədər açar rola malik olan bir bölgədə yerləşir. Çin də bunun fərqindədir. Yol həm qısadır, həm də təhlükəsiz və zəmanətlidir. Təbii ki, Çin şirkətləri məhz bu parametrlərə cavab verən yükdaşıma dəhlizlərindən istifadə etməkdə maraqlıdırlar. Bu səbəbdən də Azərbaycana xüsusi diqqət yetirilir. Son günlər ərzində Çin şirkətlərini təmsil edən şəxslərin Azərbaycana səfərləri olur. İşgüzar müstəvidə görüşlər keçirilir. Artıq reallıq bundan ibarətdir. O üzdən, Çin məhz Azərbaycan vasitəsilə yüklərin daşınmasında maraqlıdır. Sadəcə olaraq daşınma ilə bağlı bəzi texniki məsələlər ortaya çıxır və müzakirə predmeti də onlar olur. Başqa bir tərəfdən, Avropanın özü də Çin istiqamətində yüklərin daşınmasında Azərbaycana önəm verir. Bu da maraqların üst-üstə düşməsinə gətirib çıxarır. Bu baxımdan, Azərbaycanın önəmi əhəmiyyətli dərəcədə artır. Ona görə də "Bir kəmər, bir yol" layihəsində Azərbaycana verilən önəmin kökündə bu kimi faktorlar dayanır".

# "Bir kəmər, bir yol" iqtisadi layihəsində Azərbaycanın iştirakına niyə bu qədər önəm verilir...

***Azər Allahverənov:** ”Çin istəyir ki, yükləri qısa və təhlükəsiz yolla Avropaya çatdırsın”*



***Vidadi ORDAHALLI***

**Aprelin 18-də Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında Sədərək rayonunun müdafiəsi uğrunda şəhid olmuş polis əməkdaşı İlkin Seyidovun həyat və döyüş yolundan bəhs edən, müəllifi Fəridə Rəhimli olan "Bir xatirə kitabına bənzəyir ömrüm" adlı kitabın təqdimatı olub.**






# "Respublika Xatirə Kitabı" şəhidlərimiz haqqında daha bir layihəni yekunlaşdırdı

## *Şəhid İlkin Seyidovun həyat və döyüş yolundan bəhs edən "Bir xatirə kitabına bənzəyir ömrüm" adlı kitabın təqdimatı olub*

Baki-xeber.com xəbər verir ki, kitab Mədəniyyət Nazirliyi "Respublika Xatirə Kitabı" redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasındandır.

Əvvəlcə tədbir iştirakçıları torpaqlarımızın bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Kitabxananın direktoru Kərim Tahirov çıxış edərək yeni nəşrin əhəmiyyətindən söz açıb. Bildirib ki, kitab "Şəhidlər ölməz, Vətən bölünməz" rubrikası altında "Respublika Xatirə Kitabı" redaksiyası tərəfindən işıq üzü görmüş silsilə kitablar seriyasından növbəti nəşrdir. O, ölkəmizin suverenliyi uğrunda canından keçən qəhrəmanların xatirəsinin hər zaman dövlətimiz tərəfindən əziz tutulduğunu vurğulayaraq deyib ki, şəhidlərimizin keçdiyi yol gənc nəsil üçün örnəkdir, qürur yeridir.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev İlkin Seyidovun xatirəsinin əbədiləşdirilməsi üçün atılan addımı yüksək dəyərləndirib, "Respublika Xatirə Kitabı" redaksiyasına təşəkkür edib. Qeyd edib ki, dövlətimizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanlarımız haqqında belə nəşrlərin işıq üzü görməsi, onların gələcək nəsillərə təqdim olunması, sözün əsl mənasında, fədakarlıq tələb edir.

"Bu işlərdə dövlətimiz, təbii ki, öz köməkliyini əsirgəmir. "Respublika Xatirə Kitabı" redaksiyası 1997-ci ildən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə nəşr prosesinə başlayıb. O vaxtdan bu günədək redaksiya çoxsaylı işlər görüb. Kitabda şəhid olmuş şəxslərin soyadı, adı, atasının adı, doğulduğu yer, hərbi xidmətə çağırıldığı hərbi komissarlıq, döyüşdüyü, şəhid olduğu və dəfn edildiyi yerlə bağlı qısa məlumat verilir. Kitabın hər cildində 15-17 min nəfərlə bağlı məlumat yerləşdirilib. Əlbəttə, bu işlər olduqca zəhmət tələb edir. Bu gün Mədəniyyət Nazirliyinin "Respublika Xatirə Kitabı" redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birlikdə "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından olan bədii-publisistik kitabların nəşrini davam etdirir. Bu işdə kömək göstərmək, dəstək vermək hamımızın borcudur. Çünki bugünkü günümüz üçün biz şəhidlərimizə borcluyuq", - deyə V.Əliyev vurğulayıb.

Tarix elmləri doktoru, professor Solmaz Rüstəmova Tohidi tədbirin əhəmiyyətindən söz açıb. Söyləyib ki, "Respublika Xatirə Kitabı" redaksiyasının gördüyü işlər təqdirələyiqdir. Layihənin önəmini qeyd edən S.Tohidi bu işdə əziyyəti olan hər kəsə təşəkkür edib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə qeyd edib ki, belə layihələrin icrası respublikamızın müstəqilliyi uğrunda canından keçən insanların xatirəsinə verilən yüksək dəyərdir: "Hər bir şəhid bizim üçün qiymətlidir. Hər bir şəhidimiz haqqında kitablar yazılmalıdır, onların hər birinin qəhrəmanlığı bir nümunə kimi ortaya qoyulmalıdır. Bu gün şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi üçün dövlətimiz tərəfindən çoxsaylı işlər görülür. Onların adına küçələr, məktəblər var. Belə kitablar şəhidlərimizin keçdiyi qəhrəmanlıq yolunu gənc nəslə aşılayır. Bu kitab olduqca mükəmməl işlənib. Kitabda yer alan şəkillər, materiallar onu göstərir ki, şəhidimizin həyatı haqqında bütün məlumatlar əldə etmək olar".

Xalqımızın tarixi qəhrəmanlıq ənənələrindən söz açan Azərbaycan Respublikasının Prezident Administrasiyasının məsul işçisi Rasim Mirzəyev deyib ki, Qarabağ müharibəsi zamanı şəhid olanların əksəriyyəti döyüş ruhu yüksək, mənəvi dünyası olan insanlardır. Bizim şəhidlərimiz özlərini Vətən uğrunda döyüşə atmaqla adlarını tarixin şərəfli səhifəsinə yazdıra biliblər. Belə qəhrəmanlarımızı təbliğ etmək, xatirələrini əziz tutmaq bizim şərəf borcumuzdur.

"Bu gün Vətən torpağı uğrunda canından keçən hər bir şəhidimizin xatirəsi dövlətimiz tərəfindən uca tutulur. Prezident İlham Əliyev tərəfindən veteranlara və şəhid ailələrinə hər zaman böyük diqqət və qayğı göstərilir", - deyə R.Mirzəyev söyləyib.

Daxili İşlər Nazirliyinin əməkdaşı, polkovnik Əflatun Həsənov, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, Mətbuat Şurasının üzvü Azər Həsrət, yazıçı-publisist Azər Səlimov və başqaları çıxış edərək layihənin əhəmiyyətindən söz açıb, nəşrin ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkür ediblər.

Çıxışlarda İlkin Seyidovun döyüş yolundan danışılıb, kitab haqqında fikirlər səsləndirilib.

Şəhidin ailə üzvləri həm müəllifə, həm də redaksiya heyətinə göstərilən diqqətə görə təşəkkür ediblər.

"Respublika Xatirə Kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova çıxış edərək kitabın müəllifi Fəridə Rəhimlinin Azərbaycana minlərlə igidlər, vətənpərvərlər və əvəzsiz şəxsiyyətlər bəxş etmiş Naxçıvanın tarixinə nəzər salmaqla yanaşı, şəhid xüsusi təyinatlı İlkin Seyidovun həyat dastanı haqqında bütün məlumatları toplayaraq yazıya çevirdiyini, kitabın "Şəhidlər ölməz, Vətən bölünməz" nidalı kitablar seriyasından ikinci nəşr olduğunu qeyd edərək tədbirdə iştirak və çıxış edən hər kəsə minnətdarlığını bildirib.







Rusiyanın xarici işlər naziri Sergey Lavrov serbiyalı həmkarı İviça Dadiçlə danışıqların yekunlarına dair keçirdiyi mətbuat konfransında Qarabağ münaqişəsinin nizamlanması məsələsinə də toxunub.



# Moskvada əldə olunmuş Qarabağ razılaşmaları həyata keçməsə... Rusiyanın özü də məsuliyyətdən yayına bilməyəcək...

**Elşən Manafov:** *"Bununla bağlı məsuliyyət daha çox Rusiyanın üzərinə düşür"*

*"Çünki Rusiya belə bir təzyiq rıçaqlarına malikdir"*

Onun fikrincə, əvvəllər belə razılaşmalar olub, amma həyata keçirilməyib: "Bəli, mən daha əvvəl də bu cür şeyləri, xüsusilə humanitar sahədə daha əvvəl razılaşma əldə olunduğuna, lakin buna əməl edilmədiyinə dair şərhləri oxumuşam. Bu düzdür. Lakin aprelin 15-də Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşünün yekunları, hazırda gedən işlərin atmosferini hiss edərək məndə belə əsas yaranır ki, Bakı və Yerevan bu dəfə razılaşmaların kağız üzərində qalmamasında maraqlıdırlar. Biz buna yardım edəcəyik".

Qeyd edək ki, Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin 15 apreldəki Moskva danışıqlarının yekunu ilə bağlı yaydıqları birgə bəyanatda görüş iştirakçılarının Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının başlıca aspektləri barədə hərtərəfli fikir mübadiləsi apardıqları qeyd olunub. Üç ölkənin XİN rəhbərləri, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsi zonasında vəziyyətin gələcəkdə, xüsusən də kənd təsərrüfatı fəaliyyəti zamanı sabit qalmasında maraqlı olduqlarını vurğulayıblar. Tərəflər, həmçinin, hər iki ölkə ərazisində saxlanan əsirlərin yaxınlarının onlarla görüşməsi üçün qarşılıqlı əsasda tədbirlər həyata keçirmək barədə razılığa gəliblər. Həmçinin, media nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla insanlar arasında əlaqələrin qurulması nəzərdə tutulub.

O da məlumdur ki, Moskva görüşünün keçirilməsində əsas vasitəçi və təşəbbüskar tərəf Rusiya idi. Rusiya ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən biri olsa da, münaqişənin həllində mühüm rol oynaya bilər. Ən azından, bu ölkənin Ermənistana təsir imkanları daha böyükdür. Lavrovun "əldə olunan son razılaşmalar kağız üzərində qalmayacaq" fikri həm də buna görə kimin daha çox məsuliyyət daşıması məsələsini gündəmə gətirir.

Bu baxımdan maraqlıdır, Moskvada əldə olunan razılaşmaların həyata keçirilməsinə, yaxud da həyata keçirilməməsinə görə böyük məsuliyyəti kim daşıyır?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Elşən Manafovun fikrincə, sözügedən məsələ ilə bağlı Rusiyanın məsuliyyət payı daha böyük görünür:** "Çünki danışıqlarda əsas moderator Rusiya idi. Həmçinin, Rusiyanın xarici işlər naziri belə bir iddialı açıqlama verib. Ona görə də bununla bağlı məsuliyyət daha çox Rusiyanın üzərinə düşür. Rusiya arada danışıqlarda fəallığını artırmaqla Qərbə göstərmək istəyir ki, bölgədə əsas söz sahibi bu dövlətdir. O da var ki, Moskva görüşündə əsasən texniki xarakterli məsələlərlə bağlı razılıq əldə olunub. Vyana görüşü ilə müqayisədə Moskva görüşü kölgədə qaldı. Ona görə ki, Vyana görüşündə prezidentlər bir araya gəldi. Ən başlıcası, Ermənistan danışıqların formatının dəyişməsinə nail ola bilmədi. Onların bu cəhdi iflasa uğradı. Ona görə də Vyana görüşünü Azərbaycan diplomatiyasının uğuru kimi qəbul etmək olar. Ancaq Moskva görüşündə Lavrovun belə bir ciddi bəyanatla çıxış etməsinə birmənalı münasibət də bildirmək çətindir. Ona görə ki, Lavrovun bənzər açıqlamaları əvvəllər də olub. Məsələn, onun Rusiyanın 5+1 variantı ilə bağlı açıqlaması olmuşdu. Ancaq sonradan məlum oldu ki, bu açıqlamaların yerinə yetirilməsi istiqamətində Rusiya konkret və real addımlar atmaq fikrində deyil. Görünür, bölgədəki geosiyasi vəziyyət, münaqişə tərəfləri arasında qüvvələr nisbətinin birmənalı şəkildə Azərbaycanın xeyrinə olması onlara sərf etmir. O üzdən, Rusiya müəyyən mənada mövcud status-kvonun qalmasında maraqlıdır. Bu baxımdan, Lavrovun dediklərinə çox da səmimi yanaşmağın tərəfdarı deyiləm".

E.Manafovun fikrincə, Ermənistan-Rusiya münasibətlərində hazırda yaşanan gərginlik Kremlin perspektivdə Paşinyan hakimiyyətinə təzyiq etməsi üçün şəraitin dəyişməsinə səbəb ola bilər: "Çünki Rusiya belə bir təzyiq rıçaqlarına malikdir. Bu günlərdə Ermənistan parlamentinin komissiyası 27 oktyabr 1999-cu ildə baş verən gülləbarana görə Rusiya xüsusi xidmət orqanlarını günahlandırdı. Hətta Putinə yönəlik ittiham səsləndi. Ümumiyyətlə, bu səpkili açıqlamalar Ermənistanın Rusiya ilə münasibətləri baxımından yaxşı heç nə vəd etmir. Bütövlükdə, Rusiyanın indiki siyasi elitasında Paşinyana etimad bir o qədər də yaxşı deyil. Paşinyan və onun komandasının "Soros uşaqları" olması birmənalıdır. Perspektivdə Qərb Paşinyanın timsalında Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmaq istəyir. Ermənistanda baş verən hakimiyyət dəyişikliyi buna hesablanmışdı. Rusiya da bunu gözəl anlayır. Düşünürəm ki, Paşinyan tərəfindən daha fərqli addımların atıla biləcəyi təqdirdə Rusiyanın Ermənistan hakimiyyətinə təzyiqləri artacaq. Bu halda, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün daha əlverişli şərait yarana bilər".

***Vidadi ORDAHALLI***

---

**İstanbulda 31 mart bələdiyyə seçkilərindən 17 gün sonra İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri məlum oldu. Cümhuriyyət Xalq Partiyası və İYİ Partiyadan ibarət olan Millət İttifaqının namizədi Əkrəm İmamoğlu İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri oldu.**



# İmamoğlunun mer mandatı və AKP-nin hakimiyyət perspektivləri barədə yeni müzakirələr...

**Qabil Hüseynli:** *"Mən hətta Türkiyədə vaxtından əvvəl parlament seçkilərinin keçiriləcəyini də mümkün sayıram"*

*"Belə seçki keçirilsə, AKP-nin uduzacağı realdır"*

Müxtəlif etirazlar əsasında bəziləri yenidən sayılan səsvermə protokollarına görə, Əkrəm İmamoğluna 4 milyon 169 min 765 səs, Ədalət və İnkişaf Partiyasının namizədi Binəli Yıldırıma 4 milyon 156 min 036 səs verilib. Nəticənin Mərkəzi Seçki Komissiyasının sisteminə daxil edilməsindən sonra İmamoğlu Şəhər Seçki Şurasından onun İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri olduğunu təsdiqləyən möhürlü sənədi aldı. Ə.İmamoğlu daha sonra da Saraçhanədəki İstanbul Böyükşəhər Bələdiyyəsinin binasına gedərək bələdiyyə rəhbəri vəzifəsini Mövlud Üzüyoldan təhvil aldı.

İmamoğlu bunları söyləyib: "Bələdiyyə sədri vəsiqəsini aldım, şərəf və fəxr hissi keçirirəm, xoşbəxtəm. Bu vəsiqəni 16 milyon insanımız adına təhvil aldım. Bu şəhərin ehtiyaclarını bilirik. Bu şəhərdə yaşayan hər kəsin tələblərini bilirik və tez bir zamanda xidmət etməyə başlayacağıq". Bu arada, Ədalət və İnkişaf Partiyasının Ali Seçki Şurasına seçkilərdə pozuntuların olmasını əsas göstərərək, İstanbul bələdiyyə seçkilərinin ləğvi üçün etdiyi müraciətin nəticələnməsi gözlənir. Eyni istiqamətdə bir müraciət də Cümhur İttifaqının digər üzvü olan Milliyyətçi Hərəkat Partiyası (MHP) tərəfindən edilib.

Qeyd edək ki, hakim partiyanın İstanbul məğlubiyyətinin onun siyasi perspektivinə ciddi təsir edəcəyinə dair fikirlər səsləndirilir. Siyasi təhlilçilər bu qənaətdədirlər ki, Türkiyə siyasətində İstanbulun bələdiyyə başçısı seçilmək yalnız bir şəhərə rəhbərliyin ələ keçməsi kimi xarakterizə edilmir. Belə qənaətlər var ki, siyasi partiyaları olimpə məhz İstanbul bələdiyyəsi aparır. Bu xüsusda hazırkı Prezident Ərdoğanın da İstanbul bələdiyyə sədri seçiləndən sonra parladığı və uzun illər boyu hakimiyyəti əldə saxlaya bilməsi kimi paralellər aparılır. Bu baxımdan da maraqlıdır, CHP-nin İstanbul zəfəri hakim partiya olan AKP-nin siyasi perspektivinə necə təsir edəcək?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İstanbul bələdiyyə seçkisi hər zaman bir lakmus rolunu oynayıb:** "Ümumiyyətlə, araşdırdıqda məlum olur ki, bu seçkilərin qalibi AKP yox, "Millət" bloku olub. Yəni bu seçkini AKP-nin qələbəsi kimi qəbul edə bilmərik. İstanbulu önəmli edən bir çox faktor var. Bunlardan başlıcası əhalinin say tərkibi və keyfiyyətidir. Türkiyə əhalisinin 35 faizi orada yaşayır. Bundan əlavə, orada yaşayan əhalinin tərkibində ziyalılar çoxdur. Yəni Türkiyə siyasətinə əsas yönü İstanbul verir. Bundan əlavə, İstanbul iri sənaye və mədəniyyət mərkəzidir. Buna görə də hesab edilir ki, İstanbula hakim olan Türkiyənin ictimai rəyinə hökm etmək imkanını qazanır. Bu məğlubiyyətə səbəb olan faktorlardan biri də AKP və onun liderlərinin arxayın və sərt danışıqları oldu. Eyni zamanda, ölkənin iqtisadiyyatında müşahidə edilən geriləmə artıq AKP-nin zəiflədiyini göstərir. Mən hətta Türkiyədə vaxtından əvvəl parlament seçkilərinin keçiriləcəyini də mümkün sayıram. Bunu xalq tələb edəcək. Belə seçki keçirilsə, AKP-nin uduzacağı realdır. Bütün daxili faktorlar bunu söyləməyə əsas verir. İstanbul qələbəsindən sonra mənəvi üstünlük CHP-nin əlinə keçəcək. Bundan sonra CHP diktə edən tərəf olacaq. Bu partiyanın verdiyi mesajlar ciddi rezonansa səbəb olacaq. Bir sözlə, artıq ölkə dəyişiklik ab-havasına girəcək. Yəqin ki, erkən parlament seçkilərində biz bu nəticəni görəcəyik".

***Məhəmmədəli QƏRİBLİ***

# Almaniyada mühacir müsavatçılara cinayət işinin əsl motivi və "Azərbaycan hakimiyyətinin casusları"...

**Müsavat Partiyası, sözün əsl mənasında, çalxalanır. Düzdür, bəzi partiya funksionerlərindən bununla bağlı ünvanladığımız suala yayındırıcı cavablar almışıq. Onlar baş verənləri guya partiyadaxili demokratiyanın təzahürü kimi qələmə verməyə çalışırlar. Amma ortada olan faktlar və onların təbirincə desək, "partiyadaxili demokratiya"dan doğan müzakirələr tamamilə başqa mənzərəni canlandırmış olur.**

İş burasındadır ki, artıq bu müzakirələr partiyadaxili kuluarların və Müsavata aid olan qapalı "Facebook" qruplarının da sərhədini aşıb, sosial şəbəkələrdə hamının görə biləcəyi virtual məkanlarda aparılır.

Müsavatın funksionerlərindən olan Yadigar Sadıqlı ilə Arif Hacılının müavini Səxavət Soltanlı arasındakı söz atışması, əslində, bir sıra qaranlıq faktların da üstünə işıq salmış oldu. İlk anda bir-birinə atmacalar atan funksionerlərin paylaşımları altında gedən diskussiyalar sonradan əsl savaş meydanını xatırlatmağa başladı. Partiya rəhbərliyinin üzərinə hücuma keçən müsavatçılar Arif Hacılı və onun yaxın ətrafını "mühacir biznesində" günahlandırmağa başladılar. Ortaya yalnız sözlər yox, fotolar, saxta vəsiqələrin surətləri, kimin Avropaya hansı saxta yolla getdiyinə dair təkzibedilməz dəlillər qoyuldu.

Qeyd edək ki, Müsavat Partiyasının adının saxta mühacir biznesində hallanmasna dair müzakirələr bir müddət əvvəl başlayıb. Bu mövzuya ilk toxunanlardan biri hazırda Avropada yaşayan keçmiş müsavatçı, jurnalist Elbəyi Həsənli olub. O bir müddət əvvəl Avropada Müsavat adı ilə kimlərin hansı oyunlardan çıxdığını konkret adlarla yazmışdı. Həmin vaxt Müsavat rəhbərliyi onu satqınlıqda ittiham edib, mövzudan yayınmışdı. Bundan sonra Yadigar Sadıqlı ilə Arif Hacılı qrupu arasında müzakirə qızışdı. Əvvəlcə başqanın Avropa səfərində 72 vəsiqənin hər birinin 500 avroya satılması aşkar edildi. Buna cavab olaraq Hacılı tərəfindən Sadıqlının partiyanın Salyan təşkilatının sədri kimi göstərildiyi xasiyyətnamə dövriyyəyə buraxıldı. Bundan sonra münasibətlər daha da kəskinləşdi.

Müsavat Partiyası başqanının sabiq müşaviri, başqanlığa keçmiş namizəd Səxavət Əlisoy bildirib ki, əvvəllər dəhlizlərdə mühacir statusu ilə bağlı ciddi söhbətlər gəzirdi: "Mən o vaxtlar Müsavatın dəhlizlərində arayış verilməsi ilə bağlı müzakirələr getdiyini eşitmişdim. Əvvəllər düşünürdüm ki, partiyanın qeyri-fəal üzvlərini mühacirətə göndərmək istəyirlər".

Səxavət Əlisoy bu yaxınlarda Avropaya səfəri zamanı mühacirət məsələsi haqqında kiçik araşdırma apardığını da söyləyib: "Avropada olarkən mənə məlum oldu ki, bəzi mühacirlər heç Müsavat Partiyasının üzvü deyillər. Amma sənədlər Müsavat Partiyasından verilib və onlar bu partiyanın biletini gəzdirirlər. Deməli, burada heç də primitiv bir arayışdan söhbət getmir".

Səxavət Əlisoy Avropadakı bəzi mühacirlərin Müsavat Partiyası başqanı Arif Hacılıya pul verdiyini də vurğulayıb: "Sosial şəbəkələrdə "Mühacir Müsavat" qrupu var. O qrupda olan tanışlarımızdan biri mənə bu gün dedi ki, iyun ayının 15-17-də Arif Hacılı Strasburqa mühacirlərdən pul almağa gələcək. Bundan başqa, siyasi mühacir və Arif Hacılının Avropadakı maliyyə məsələlərini kurasiya edən Eldəniz Yusibov status yazdı ki, başqan səfər edəcək. O, qrup üzvlərinə xatırladıb ki, Arif Hacılı ilə keçirəcəkləri görüşə gələn mühacirlər özləri ilə ianələr gətirsinlər. Lakin o bu səhvini anlayaraq ikinci status yazdı və ianələr məsələsinə toxunmadı. Yəni özləri də etiraf edirlər ki, Arif Hacılıya pul verirlər. Öz başqanlarının cibinə pul qoymağı sistemləşdiriblər. Hətta zaman-zaman Azərbaycana pul da göndərirlər və o vəsait Arif Hacılıya çatır".




Ardınca partiyanın fəal üzvlərindən olan Taleh Xasməmmədov bizim qəzetə verdiyi müsahibədə bildirdi ki, mühacir biznesi ilə bağlı sosial şəbəkələrdə statuslar yazdığına görə özünün iştirakı olmadan məsələsini müzakirə edib, şəxsini partiya sıralarından xaric ediblər. Xasməmmədov bizə verdiyi müsahibədə bildirirdi ki, ortada ciddi ittihamlar və konkret sübutların olmasına baxmayaraq, Müsavat rəhbərliyi mövzudan yayınır. Partiyadan çıxarılan üzv deyirdi ki, əslində, Müsavatın özü şəffaflığını sübut etmək üçün bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etməlidir. Çox maraqlıdır ki, partiya belə müraciəti etməkdə maraqlı deyil. Bu yöndə araşdırma aparmaq istəyən jurnalistlərə isə açıqlama belə vermək istəmirlər. Hər halda, Müsavatın istəyi olmasa belə, bu yöndə araşdırmalar aparmaq üçün hüquq-mühafizə orqanlarının əlində ciddi əsaslar var. Çünki qanunvericilik və yaranmış vəziyyət buna imkan verir. Prosessual Məcəllədə bildirilir ki, KİV-də işıq üzü görmüş zəruri faktlar cinayət işinin başlanması üçün əsas ola bilər. Bunu təsadüfən xatırlatmırıq. Çünki artıq bir neçə fakt var ki, Almaniyaya saxta sənədlə gedən "müsavatçılar"la bağlı cinayət işi başlanıb, zəruri istintaq hərəkətləri aparılır. Almaniyada belə addımlar atılırsa, bizim hüquq-mühafizə orqanları niyə hərəkətə keçmirlər? Avropa ölkələrində saxta müsavatçı kimi ifşa olunan və deportasiya gözləyənlər canlarını ictimai qınaqdan qurtarmaq üçün maraqlı arqumentlər irəli sürürlər. Onlar iddia edirlər ki, guya həqiqi müxalifətçilərdirlər, sadəcə, mühacirətə getdikləri ölkələr onları hakimiyyətin agentləri zənn etdiyi üçün burada yaşamağa izn vermir. Hər halda, bu tip fikirlər diqqəti məsələnin əsl mahiyyətindən yayındırmağa hesablanıb. Məqsəd saxta mühacir biznesi ilə bağlı detalları ört-basdır etməkdir. Ancaq əldə etdiyimiz məlumata görə, bütün Avropa ölkələrində bu yöndə ciddi iş aparılır.

Yaxın zamanda ölkəni saxta yollarla tərk edib bəzi ölkələrdə siyasi sığınacaq almağa cəhd edən minlərlə şəxsin ölkəyə deportasiya olunacağı gözlənir. Təbii ki, ölkəyə daxil olanda onlarla müəyyən filtrasiya işləri aparılacaq. Aydındır ki, həmin vaxt saxta mühacir biznesinə aparan yollara elə saxta vəsiqələr verən şəxslərin ifadələri əsasında gedib çıxılacaq...

***Məhəmmədəli QƏRİBLİ***



# ABŞ Şərqi Aralıq dənizində Türkiyəyə qarşı İsrail-Yunanıstan-Kipr üçlüyü yaradır...

*Qərbin Türkiyəyə iki cəbhədə eyni vaxtda problem yaratmaq planı... Şərqi Aralıq dənizi və Suriya...*

**Türkiyə - ABŞ münasibətlərində öncə Suriya, ardınca Rusiya S-400 raketdən müdafiə sistemləri və F-35-lərlə bağlı yaşanan gərginliyə daha biri əlavə olunur.**

Baki-xeber.com xəbər verir ki, ABŞ Konqresinə təqdim olunan yeni layihə onsuz da gərgin olan münasibətləri daha da ağırlaşdıra bilər. Belə ki, bu günlərdə amerikalı demokrat senator Bob Menendez və respublikaçı senator Marko Rubionun Konqresə Şərqi Aralıq dənizində ABŞ-ın Yunanıstan-İsrail-Yunan Kipri üçlüyünə dəstəyini nəzərdə tutatan layihə təqdim edib.

ABŞ-ın Şərqi Aralıq dənizi strategiyasını dəyərləndirən təhlükəsizlik eksperti Yusif Alabarda Türkiyənin çox istiqamətdən hədəfə alındığını deyir. "Onların əsas hədəflərinin şərqi Aralıq dənizilə başlayacaq bir problemi eyni vaxtda Suriyada Fəratın şərqində da başlatmaq olduğunu güman edirəm. Türkiyəyə iki cəbhədə eyni vaxtda problem yaratmaq siyasəti güdürlər. Bu məqamda Fəratın şərqində fəaliyyətlərimizə davam edərkən şərqi Aralıq dənizindəki fəaliyyətlərimizi də heç bir şəkildə güzəştə getmədən davam etdirməliyik"- ekspert deyib.

Ekspert şərqi Aralıq dənizində Türkiyəyə qarşı yetişən təhlükə barədə də xəbərdarlıq edib: "Şərqi Aralıq dənizində bir strateji qasırğa gəlir. Cəmiyyət buna hazır olmalıdır. Çünki iki alternativimiz var. Ya hər şeydən əl çəkib ABŞ-a boyun əydirəcək bir siyasətlə idarə olunan Türkiyə olacağıq, ya da bizə hörülən divarları yıxıb öz siyasətimizi inşa edən ölkə olacağıq".

# Beynəlxalq Abidələri Müdafiə Günündə dünya Qarabağdakı erməni vandalizmlərinə susdu

**Aprelin 18-i bütün dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir. Məlumdur ki, təkcə XX əsrdə baş verən I və II Dünya müharibələri nəticəsində saysız abidə dağıdılıb, məhv olunub.**

## *Faiq İsmayılov: "Təəssüf ki, bu məsələyə hələ heç bir beynəlxalq qurum münasibət bildirməyib"*



## *"... UNESCO-nun baş direktoruna müraciət ünvanlamışıq"*

Hazırda dünyada minlərlə abidə məhv olmaq təhlükəsi ilə üz-üzədir. Bundan başqa, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Azərbaycan torpaqlarında ermənilər bizə məxsus abidələri də terrora məruz qoyub, yüzlərlə abidə dağıdılıb, məhv edilib, bir hissəsi isə erməniləşdirilib. Ermənilər işğal altındakı Azərbaycan abidələrini dağıtmaqla kifayətlənmir, məscidlərimizdə donuz saxlayırlar.

Azıx mağarasında, digər arxeoloji abidələrimizdə qanunsuz arxeoloji qazıntılar aparan ermənilərin bu bədnam əməllərinə hələ də beynəlxalq qurumlar münasibət bildirmirlər. Hələ indiyə qədər abidələrin beynəlxalq mühafizəsini və müdafiəsini həyata keçirən təşkilatlar işğal altındakı torpaqlarımızda abidələrin vəziyyəti ilə bağlı hər hansı bir bəyanat yaymayıblar.

### Azərbaycanın işğal altındakı mədəni irsinin qorunması beynəlxalq hüquqla tənzimlənməlidir...

**Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, Ermənistanın hərbi təcavüzü nəticəsində məhv edilən tarixi abidələrimizin taleyi aidiyyəti beynəlxalq qurumları narahat etmir.** "Bilirsiniz ki, Azərbaycan tərəfi dəfələrlə beynəlxalq qurumlara, təşkilatlara müraciət edərək ermənilərin işğal olunan ərazilərimizdə abidələrimizə divan tuduğu, dağıdıb məhv etdiyi barədə narahatlığını bildirib. Lakin təəssüf ki, bu məsələyə hələ heç bir beynəlxalq qurum münasibət bildirməyib. Halbuki, ermənilər tərəfindən dağıntıya məruz qalan abidələrimizin müdafiəsində beynəlxalq qurumlar da aktivlik göstərməlidirlər. Ancaq biz onlardan bunu görmürük. Sözsüz, bunun da kökündə o dayanır ki, bu cür beynəlxalq təşkilatlarda ermənipərəst qüvvələr var. Bu qüvvələr ermənipərəst mövqe və xristian həmrəyliyi nümayiş etdirirlər. Bu səbəbdən də indiyə qədər ermənilərin dağıtdığı, məhv etdiyi, quruluşunu dəyişdirdiyi abidələrimizin taleyinə biganəlik davam edir" - deyə F.İsmayılov bildirdi. O, həmçinin, vurğuladı ki, Azərbaycanın 12 dekabr 2000-ci il tarixdən qoşulduğu "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyası Azərbaycanın işğal altındakı ərazilərində mədəni sərvətlərin qorunmasına geniş şərait yaratdığı halda, biz bundan yararlana bilmirik.

Azərbaycanın işğal altındakı torpaqlarında mədəni irsin toxunulmazlığının təmin edilməsi beynəlxalq konvensiyanın tələblərindən gələn tövsiyələr vasitəsilə beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilməlidir.

Müsahibimiz, həmçinin, qeyd etdi ki, 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişələr zamanı mədəni abidələrin qorunmasına dair Konvensiya" müharibə dövründə mədəni mülkiyyətin qorunmasına həsr olunmuş ilk beynəlxalq müqavilədir. F.İsmayılovun sözlərinə görə, bu Konvensiyaya əsasən, hücum edən tərəfin mədəni mülkiyyətə hörmət edib qorumaqla yanaşı, həm də işğal edilmiş ərazilərdə bu mülkiyyətin oğurlanmasının qarşısının alınması istiqamətində konstruktiv addımlar atmaq öhdəliyi var. "Konvensiyaya üzv dövlətlər "mədəni mülkiyyətə qarşı yönəlmiş vandalizm aktlarını qadağan etmək, qarşısını almaq və zərurət yaranarsa, mədəni mülkiyyətə qarşı yönəlmiş oğurluq, qarət və qanunsuz mənimsənilmənin istənilən formasına son qoymaq" barəsində razılığa gəliblər.

1954-cü il Haaqa Konvensiyasına 1999-cu ildə qəbul edilmiş İkinci Protokolla silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması dairəsi daha da genişləndi. Xüsusilə Ermənistanın Azərbaycan torpaqlarını işğalı kontekstində, Protokolun 9-cu bəndi işğalda iştirak edən tərəfin "işğal edilmiş ərazilərə münasibətdə" mədəni mülkiyyətin, istənilən arxeoloji qazıntı nümunəsinin qanunsuz ticarəti, bu ərazilərdən çıxarılması, abidələrin mədəni, tarixi və ya elmi sübut xüsusiyyətinin dəyişdirilməsi və ya dağıdılmasının qadağan edilməsi və qarşısının alınmasını təsbit edir".

O, həmçinin, vurğuladı ki, 21 dekabr 2012-ci il tarixində Parisdə UNESCO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 7-ci sessiyasında Azərbaycanın təşəbbüsü ilə, işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında qərar qəbul edilib. Qərarda işğalçı ölkələr tərəfindən işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında hesabatın verilməsi öhdəliyi və bu ərazilərə texniki missiyaların göndərilməsi imkanlarının əks olunduğunu deyən F.İsmayılovun sözlərinə görə, 18-19 dekabr 2013-cü il tarixlərində Parisdə keçirilən UNESCO-nun Silahlı Münaqişələr Zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinin 8-ci sessiyasında qəbul edilmiş digər sənəddə "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası və onun iki protokolunda işğal edilmiş ərazilərə aid müddəaların hüquqi təhlili, onların həyata keçirilməsi mexanizmləri, monitorinq məqsədilə UNESCO tərəfindən texniki missiyaların göndərilməsi, UNESCO-nun baş direktoru tərəfindən BMT-nin Təhlükəsizlik Şurası və Baş Məclisində qəbul olunacaq qətnamələrdə işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması məsələsinin diqqətə çatdırılması və s. öz əksini tapıb.

## *"Halbuki, ermənilər tərəfindən dağıntıya məruz qalan abidələrimizin müdafiəsində beynəlxalq qurumlar da aktivlik göstərməlidirlər"*

### "Bu gün ermənilər tarixi abidələri, məsələn, Əsgəran qalasını yeniləyirlər"

F.İsmayılovun sözlərinə görə, vaxtaşırı olaraq, beynəlxalq təşkilatların qarşısında işğal altında qalan torpaqlarımızdakı mədəni irsin qorunması ilə bağlı məsələ qaldırılır. O vurğuladı ki, beynəlxalq qanunlara əsasən, işğal edilmiş ərazilərdəki abidələri qorumaqla bağlı işğalçı ölkənin öhdəlikləri var, lakin ermənilər buna məhəl qoymurlar və məqsədli şəkildə işğal olunan Azərbaycan torpaqlarındakı abidələri məhv edirlər.

F.İsmayılov onu da bildirdi ki, bir qrup qeyri-hökumət təşkilatı ilə birlikdə UNESCO baş direktoru Odri Azuleyə ünvanlanmış müraciət imzalanıb. O, həmçinin, dedi ki, sənəd, eyni zamanda, Avropa Parlamentinə də təqdim ediləcək. Apardıqları tədqiqatın çox əzabverici olduğunu qeyd edən F.İsmayılov problemin Azərbaycandan kənara çıxarılmasının vacibliyini vurğuladı: "Tədqiqat zamanı elə faktlarla rastlaşdıq ki, adam içindən göynəyir, yanır. Doğrudanmı mülkümüzü erməniyə hədiyyə etmişik? Bu gün ermənilər tarixi abidələri, məsələn, Əsgəran qalasını yeniləyirlər. Bunlar əsasən monastr tipli xristianlığa qədər olan abidələrdir ki, onların əsl görünüşü dəyişdirilir. Biz ermənilərin işğal altında saxladıqları ərazilərimizdə abidələrimizə qarşı törətdikləri vandalizmə münasibət bildirməsi üçün UNESCO-nun baş direktoruna müraciət ünvanlamışıq".

### "Ermənistan Respublikası işğal etdiyi Azərbaycan ərazilərinin ona məxsus olması ilə bağlı saxta əsaslar yaratmağa çalışır"

Qeyd edək ki, Azərbaycanın işğal edilmiş ərazilərində ermənilərin abidələri məhv etmələri ilə bağlı UNESCO-nun baş direktoru Odri Azuleyə ünvanlanan müraciətdə "Ermənistan Respublikası işğal etdiyi Azərbaycan ərazilərinin ona məxsus olması ilə bağlı saxta əsaslar yaratmağa çalışır. İşğalda saxlanılan Azərbaycan torpaqlarında müxtəlif əsrlərə aid daşınan və daşınmaz mədəni irs nümunələrini mənimsəmək, İslam dini abidələrini məhv etmək kimi qanunsuz fəaliyyət həyata keçirir. Ermənistan son 25 ildə Azərbaycanla cəbhə xəttində tətbiq edilən atəşkəsdən istifadə edərək işğal altında saxladığı ərazilərimizdə yüzlərlə yer adlarını, inzibati yaşayış məntəqələrinin adlarını, daşınmaz tarix və mədəniyyət abidələrinin adlarını və toponimləri erməni adları ilə əvəz edib. Azərbaycan işğal altındakı mədəni irsin toxunulmazlığının təmin edilməsinin rəhbərlik etdiyiniz UNESCO kimi nüfuzlu beynəlxalq təşkilatın vasitəsilə həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar. Mədəni irs bir xalqın milli-mədəni, tarixi sərvəti olsa da, bu nümunələr, ümumilikdə, bəşəriyyətə məxsusdur və bəşər mədəniyyətinin tərkib hissəsidir. Odur ki, bir xalqın mədəni irsinin digər xalqlar və ya millətlər tərəfindən dağıdılması, formasının dəyişdirilməsi, məhv edilərək vandalizmə uğradılması beynəlxalq konvensiyalar və sizin rəhbərlik etdiyiniz təşkilatın məramına görə yolverilməzdir.

Azərbaycan Respublikasının UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsinə üzv seçilməsi ölkəmizə işğal altında qalan tarix və mədəniyyət abidələrinin qorunması haqqında qəbul edilmiş beynəlxalq hüquqi sənədlərdən yararlanmaq imkanı verir. Belə ki komitə Azərbaycana onun işğal altında qalan tarix və mədəniyyət abidələrinin qorunmasına nəzarət edilməsinə şərait yaratmalı və işğalçı dövlətin nəzərinə münaqişə zonasında mədəni mülkiyyətin qorunmasının vacibliyini çatdırmalıdır" - deyə sənəddə bildirilir.

Sənəddə o da vurğulanır ki, 1988-ci ildən başlayaraq Ermənistan Azərbaycana qarşı işğalçılıq müharibəsi aparır, Azərbaycanın 20% ərazisi Ermənistan Respublikası silahlı qüvvələrinin işğalı altındadır. Ermənistan işğalçılıq siyasətinə haqq qazandırmaq üçün zəbt etdiyi Azərbaycanın torpaqlarının ona məxsus olmasıyla bağlı saxta və vandalizmlə müşahidə edilən əsaslar yaratmağa çalışır. Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərindəki mədəni irs nümunələrinə öz mülkiyyət hüququnu tətbiq etməsi, faktiki olaraq, Azərbaycanın öz mədəni dəyərləri üzərindəki hüququndan zorakı surətdə təcrid edilməsidir. Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərində müxtəlif əsrlərə aid daşınan və daşınmaz mədəni irs nümunələrini mənimsəmək, islam dini abidələrini isə dağıtmaq, yox etmək kimi qanunsuz fəaliyyət həyata keçirir.

***İradə SARIYEVA***

# Ermənistanda anti-Paşinyan sosial inqilabın əlamətləri sürətlə yetişir

**Ötən bir ildə Ermənistanda sosial-iqtisadi müstəvidə hansısa yeniləklərin olmaması burada növbəti inqilabın baş verə biləcəyinə dair ehtimalları yenidən artırıb. İndi az qala ölkədə hər gün sosial tələblərlə keçirilən aksiyalar isə, əksər ekspertlərə görə, yeni inqilabın başlanğıcı sayılır. Erməni mediasına diqqət yetirdikdə burada sosial müstəvidə aksiyaların keçirilməsinə dair çoxsaylı məlumatlara rast gəlmək mümkündür.**

Məsələn, "Novosti Armeniya" portalı yazır ki, artıq "Araratsement" şirkətinin əməkdaşları da tətil elan edərək aksiyyaya başalyıblar. Qeyd edək ki, işçilərə şirkətin bağlanması ilə bağlı bidiriş göndərilib. Amma əməkdaşlar bildirişləri götürməkdən imtina ediblər. "Araratsement"in direktorluğu bildirib ki, sementin istehsal dəyəri bahadır: "Biz İran istehsalı olan sementlə rəqabət apara bilmirik".

Bununla yanaşı, ölkənin fermerləri də ayağa qalxıblar. Onlar "Spayka" şirkətinin rəhbəri David Xazaryanın həbsinə etiraz edirlər. Minlərlə etirazçı fermer paytaxt İrəvanın mərkəzində Ali Məhkəmənin binası qarşısına toplaşıb. Məhkəmənin qərarı ilə İrəvandakı ofisində vergi müfəttişləri ilə polislərin birgə keçirdiyi əməliyyat nəticəsində David Xazaryan saxlanaraq həbs edilib. Onun dövlət büdcəsinə külli miqdarda ziyan vurduğu iddia olunur. Əslində isə Ermənistanda 15 ildən çoxdur fəaliyyət göstərən bu şirkətin rəhbərinin həbsinə səbəb baş nazir Nikol Paşinyanın həyat yoldaşıdır. "Hraparak" qəzetinin yazdığına görə, "Spayka" şirkətinin rəhbəri David Xazaryanla Paşinyan ailəsi arasında narazılıqlar 6 aya yaxındır davam edirdi. Paşinyanın həyat yoldaşı Anna Akopyan şirkətdən hər ay onun şəxsi fonduna 5 min dollar ödəməyi tələb edib. Qarşı tərəf isə bu rəqəmlə razılaşmayıb. Elə problemlər də buradan başlayıb. Etirazçılar bildiriblər ki, 50 minə yaxın ailə pulsuz qalıb. Ancaq xalqı aldadaraq hakimiyyətə gələn Paşinyan heç 50 ailəyə də çörək pulu vermək gücündə deyil. Əksinə, ölkədə hər gün işsizlərin sayı artır. Aksiya iştirakçıları Paşinyan və onun komandasından xalqın incidilməsinə son qoyması tələb edib.

Qeyd edək ki, "Spayka" Ermənistanın ən böyük şirkətlərindəndir. 2001-ci ildə yaradılan "Spayka" 2007-ci ildən Avropa və MDB ölkələrinə, o cümlədən Rusiyaya meyvə və tərəvəz daşımaqla məşğuldur. Ermənistanın Armavir vilayətinin Zartonk kəndinin sakinləri sosial problemlər səbəbindən etiraz aksiyası keçiriblər. Aksiya iştirakçıları bildiriblər ki, bir il bundan əvvəl inqilab yolu ilə hakimiyyətə gələn Nikol Paşinyan Ermənistanda bütün problemlərin həll ediləcəyini demişdi. Lakin bundan əvvəlki dövrlərdə olduğu kimi, bu gün də insanlar sosial problemlərdən əziyyət çəkir. Ötən bir il müddətində Paşinyan və komandası problemlərin həlli istiqamətində ciddi addımlar atmayıb.

Onu da qeyd edək ki, Nikol Paşinyan bu günlərdə Avropa Şurası Parlament Assambleyasının tribunasından son 10 ayda ölkədə 50 mindən çox yeni iş yerinin açıldığını bəyan edib. Ermənistanda fəaliyyət göstərən "İrs" siyasi partiyası fondunun başçısından bu iş yerlərinin harada açıldığına aydınlıq gətirməsini tələb edib. Partiyanın Paşinyana ünvanladığı açıq məktubda deyilir ki, baş nazirin AŞPA-nın sessiyasında "məxmeri inqilabdan" sonra ölkədə 50 mindən çox yeni iş yerinin yaradılması barədə bəyanatı ağlabatan deyil. Qeyd olunub ki, cəmiyyət əmək bazarında işçi qüvvəsinin 10 faizini təşkil edən bu rəqəmin respublikada işsizliyin artması və dövlət idarələrində aparılan ixtisarlar fonunda əsaslandırılmasına ehtiyac duyur. Məktub müəllifləri rəsmi statistikaya müraciət edərək həqiqi rəqəmləri göstəriblər. Belə ki, 2019-cu ilin fevralında Ermənistanda işsizlərin sayı 228,8 min, yaxud əmək qabiliyyətli əhalinin 20,8 faizi qədər olub. Əlavə edilib ki, bu rəqəm əvvəlki ayın göstəricilərindən fərqlənmir. Məktubda yazılır: "Sənaye istehsalının vəziyyəti barədə analitik hesabatlarda bildirilir ki, bir çox sahələrdə, o cümlədən metallurgiya və dağ-mədən sənayelərində göstəricilərin açıq-aydın geriləməsi müşahidə olunub. Deməli, həmin müəssisələrdə iş yerləri də azalıb". Bununla yanaşı, iş yerlərinin ixtisarı da ciddi narazılıq yaradır.



Məhz belə bir vaxtda "Mənim Addımım" Bloku hökumətin strukturunun dəyişdirilməsi barədə mübahisəli qanun layihəsini dəstəkləyəcəyini bildirib. Qeyd edək ki, bu qanun layihəsində hökumətdəki nazirliklərin sayının 17-dən 12-yə endirilməsi nəzərdə tutulub. Qanun layihəsi qəbul olunacağı təqdirdə kənd təsərüffatı, energetika, mədəniyyət, diaspora, gənclər və idman nazirlikləri ləğv ediləcək. Ən çox mübahisəyə səbəb olan məqam Diaspora Nazirliyinin ləğvi olub. Belə ki, həm diaspora, həm də bir sıra partiyalar bu addımın qəbuledilməz olduğunu bəyan edib. Parlamentdəki müxalifət isə dəyişikliklərin ciddi islahat olmadığını deyib. Müxalifət hökumətin Serj Sarkisyanın yolunu tutduğunu və hələ də güc nazirliklərini əlində saxladığını söyləyib. Ermənistanın "Jamanak" qəzetinin yazdıqları da bunu təsdiqləyir. Qəzet yazır ki, Ermənistan hökuməti əmək bazarında tələbatın daha çox olduğu sahələr üzrə mütəxəssislərin hazırlanmasına istiqamətlənən qərar qəbul etmək niyyətindədir. Bu xüsusda müvafiq sənəddən məlum olub ki, hazırda Ermənistanın hüquq-mühafizə orqanlarında, xüsusən də polis idarələrində ciddi kadr çatışmazlığı var: "Hökumətin müvafiq qərar layihəsinə əlavə edilən izahat vərəqindən belə aydın olur ki, hazırda Ermənistanda ən çox tələb olunan peşə "polis işidir". Hökumət bu qərarı ilə 200 nəfərin ödənişsiz əsasda polis təhsili almasına və tələbatın çoxaldığı bu peşəyə yiyələnməsinə vəsait ayıracaq".

Həmçinin vurğulanıb ki, Ermənistanda polis çatışmazlığının başlıca səbəbi polis birliklərinin (keçmiş daxili qoşunlar) ölkə sərhədlərində döyüş növbəsi və sərhəd-nəzarət işinə cəlb olunması ilə əlaqədardır. Belə ki, 2018-ci ilin yayında verilən qərarla baş nazir Nikol Paşinyan Ermənistan ordusunun say tərkibinin qənaətbəxş olmadığını nəzərə alaraq, işə yaramayan və daha çox təhdid-təzyiq funksiyasını icra edən polis qüvvələrini Ermənistan-Azərbaycan sərhədlərində döyüş vəzifələrinin həyata keçirilməsi işinə cəlb edib. Amma Ermənistanda polis Azərbaycan-Ermənistan sərhədində xidmət etmək istəmir. Qeyd edək ki, Ermənistanın Türkiyə və İranla sərhədini Rusiya Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunları, Gürcüstanla sərhədini Milli Təhlükəsizlik Xidməti, Azərbaycanla dövlət sərhədini isə Daxili Qoşunların polisi qoruyur. Amma erməni mediası yazır ki, Ermənistanda polis qüvvələri daxilində narazılıqlar baş qaldırır. Səbəb onların sərhəddə xidmətdən imtina etməsidir. Çünki onlar kifayət qədər təhlükəli ərazilərdə xidmət aparmalı olurlar. Qeyd olunur ki, onlarla polis əməkdaşı artıq öz müqaviləsini pozaraq sistemdən çıxıb. Belə vəziyyətdə polisin sayının azalması üzündən ictimai asayişin qorunmasında bir çox problemlər yaranıb və ölkədə kriminal vəziyyət kəskinləşib. Ekpertlərin fikrincə, Paşinyanın polis qüvvələrinin say tərkibini yenidən çoxaltmaq istəyi həm də son zamanlar əhalinin etiraz aksiyalarının mütəmadiləşməsilə əlaqədardır. Belə ki, seçkiqabağı verdiyi vədləri hələ də yerinə yetirmədiyinə görə Paşinyan gələcəkdə ona qarşı başladılacaq kütləvi etirazlardan ehtiyat edərək aksiyaları güc vasitəsilə boğmaq barədə indidən tədbir görür.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ münaqişəsinin həlli Rusiya-ABŞ gərginliyini də aradan qaldıra bilən faktora çevrilir - Yeni və inanılmaz nüanslar...

**Moskvada Rusiya tərəfinin təşəbbüsü və bu ölkənin xarici siyasət idarəsinin rəhbəri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla onun erməni həmkarı Zöhrab Mnatsakanyan arasında keçirilən görüş Kremlin Dağlıq Qarabağ münaqişəsinin həllində yenə aktiv rol oynamaq niyyətinin göstəricisi sayılır.**

Görüşdən sonra verilən açıqlamalardan belə bəlli olur ki, tərəflər artıq müəyyən məsələlər üzrə razılıqlar əldə edib. Bunu Sergey Lavrovun açıqlamaları da təsdiq edir: "Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan arasında əldə edilən razılaşmalar faydalıdır. Həmin görüşün yekunlarına görə, humanitar tədbirlərə bağlı məqamlar yekun birgə bəyanatda müfəssəl şəkildə qeyd olunub. Bu tədbirlərin məğzi vəziyyəti, xüsusilə də əkinçilik işləri dövründə sabitləşdirmək üçün tərəflərin əlavə səylər göstərmək zərurətinə razılıq vermək, həbs yerlərində saxlananların yaxınları üçün onlarla görüşməyə gəlmələrinə rəvac vermək, habelə insanlar arasında, xüsusilə də media nümayəndələri arasında təmaslara dəstək verməkdir". Rusiyalı nazir dövlət başçılarının silsilə bəyanatlarını, ATƏT Xarici İşlər Nazirləri Şurasının son iclasında qəbul olunmuş bəyanatları misal gətirib: "Orada işlərin bütün təməl istiqamətləri göstərilir. Təfərrüatlar isə, təbii ki, məxfidir".

Bununla yanaşı o da məlumdur ki, görüş iştirakçıları yaxın gələcəkdə təmasların davam etdirilməsini razılaşdırıb. Görüşlərin davam etdirilməsi hələ sülh ümidlərinin tam tükənmədiyini göstərir. Özü də o fonda ki, məsələ ilə bağlı Azərbaycanın mövqeyi dəyişməz qalır. Bakı birtərəfli qaydada bəyan edir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yalnız Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı şərtilə mümkündür. Məsələnin substantiv danışıqlar vasitəsilə, mərhələli şəkildə həlli isə Bakının əsas təklifidir. Eyni zamanda, Azərbaycan bəyan edir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin nizamlanması üçün hüquqi əsas təşkil edir. Burada isə birmənalı olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təsdiqlənir. Belə durumda onu da qeyd edək ki, Rusiyanın münaqişənin həlli ilə bağlı moderatorluğu öz əlinə almaq cəhdlərinə də Bakı etiraz etmir. Moskva təmasında daha çox diqqəti cəlb edən məqam görüşün Sergey Lavrovun təşəbbüsü və təşkilatçılığı ilə keçirilməsidir. Burada Moskva çalışır ki, münaqişənin çözümü istiqamətində artıq müəyyən nailiyyətlər əldə olunsun. Çünki indiki şəraitdə hərbi eskalasiyaya imkan verməcədən danışıqların aparılması Rusiya üçün məqbuldur. Lakin Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək istəyir və bu şərtə əməl edilməyincə eskalasiya təhlükəsi də aradan qalxmır. Bunu Rusiyada da yaxşı bilirlər və bu səbəbdən Kreml, əslində, Ermənistanı danışıqlar masasında konkret addımlar atmağa vadar etməyə çalışır.

Rusiyalı ekspert Qriqori Trofimçuk məsələnin bu tərəfinə nəzər salaraq bildirir ki, Moskva heç vaxt Qarabağ münaqişəsinin nizamlanması prosesindən kənarda qalmayıb:"Ona görə Vyana sammitinin ardınca nazirlərin Moskva görüşü keçirildi ki, Rusiya, Azərbaycan və Ermənistan yüksək səviyyəli görüşünə hazırlıq işləri başlasın. Bununla belə, Moskva özünü Vyana tədbirindən ayırmır və bəyan edir ki, əvvəllər keçirilmiş müzakirələri nəzərə almaqla hərəkət edir. Əsas mübahisə mövzusu isə, əvvəlki kimi, eynidir: Azərbaycan yeni uzun, səmərəsiz danışıqlar prosesinə cəlb olunmaq istəmir və tam aydın bilmək istəyir ki, əraziləri ona nə zaman qaytarmağa başlayacaqlar. Bunu Rusiyada da yaxşı bilirlər". Məhz bu vəziyyətdə ekspertlərin böyük əksəriyyəti diqqəti ona yönəldir ki, Rusiyanın əlində danışıqları aktivləşdirmək və nəticə əldə etmək üçün kifayət qədər hərbi-siyasi və iqtisadi mexanizmlər mövcuddur. Düzdür, bu vaxta qədər həmin mexanizmlərdən Moskva, belə demək olarsa, səmərəli istifadə etməyib. Amma dəyişən geosiyasi vəziyyət və Ermənistanın qərbə meyllənməsi fonunda vəziyyət əhəmiyyətli dərəcədə dəyişə bilər. Dağlıq Qarabağ probleminin həllində artıq Rusiya üçün də geostrateji reallıqlar ön plana çıxmaq iqtidarındadır. Eyni zamanda, Rusiya-Azərbaycan münasibətləri və iki ölkə arasında mövcud olan etimad Moskvanı daha aktiv şəkildə məsələyə müdaxilə etməyə vadar edə bilər.

Qeyd olunduğu kimi, məsələnin həm də geosiyasi tərəfləri var. Məsələ burasındadır ki, indi ABŞ da Qarabağ münaqişəsinin həllində aktiv siyasət sərgiləmək istəyir. Artıq ABŞ tərəfi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələri davam etdirmək üçün növbəti görüşü Vaşinqtonda keçirməyi təklif edib. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Varşavada keçirdiyi brifinqdə faktı təsdiq edib: "Bizə danışıqlarda irəliləyiş lazımdır. Deyə bilərəm ki, bu baxımdan elə də nikbin deyiləm, amma real danışsaq, səyləri ikiqat artırmaq lazımdır. Rusiya bunu edir, son görüşdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov da iştirak etdi. Ardınca isə ABŞ-dan təklif aldıq. ABŞ dövlət katibi də danışıqlarda irəliləyişə nail olunmasına töhfə vermək niyyətindədir". Qeyd edək ki, Azərbaycanda xarici işlər nazirlərinin Vaşinqtona səfərinin hazırlandığı barədə məlumatlar var idi. Bu günlərdə Milli Məclisin üzvləri Asim Mollazadə və Səməd Seyidovun daxil olduğu nümayəndə heyəti Vaşinqtonda olub, Konqresdə və digər siyasi dairələrdə görüşlər keçirib. Burada əsas müzakirə mövzularından birini də məhz Qarabağ münaqişəsi təşkil edib. Bu məlumatlar bir daha Qarabağ məsələsində ABŞ-ın da fəal mövqeyə keçdiyini göstərir və bunu Rusiyada da nəzərə alırlar.

Aydındır ki, Rusiya Qarabağ münaqişəsinin ABŞ tərəfindən həllinə çətin razılıq verər. Amma Kreml yaxşı bilir ki, təşəbbüsün ABŞ-ın əlinə keçməsini istəmirsə, bunun üçün artıq konfliktin çözümü istiqamətində real nəticəsi olan addımlar atmalıdır. Belə vəziyyətdə ABŞ-ın da fəallığı artırması, ekspertlərə görə, əslində Moskva və Vaşinqtonu ortaq mövqedən çıxış etməyə yönləndirə bilər. Xatırladaq ki, Qarabağ məsələsində ABŞ və Rusiyanın indiyə kimi hansısa mənafe toqquşması olmayıb. Əksinə, məhz Qarabağ məsələsinin həlli uzun müddətdir aralarında kəskin ziddiyyətlər yaşanan bu iki ölkəni, nəhayət, konkret əməkdaşlığa gətirə bilər. Xatırladaq ki, zaman-zaman bu xüsusda təkliflər də olub. Məsələn, bundan öncə ABŞ-ın Avrasiyada münaqişələrin nizamlanması üzrə xüsusi nümayəndəsi Keri Kavano belə bir açıqlama ilə çıxış etmişdi ki, Amerika Birləşmiş Ştatları Dağlıq Qarabağ probleminin həllində Rusiya ilə əməkdaşlıq etməlidir: "Prezident Tramp Rusiya ilə əməkdaşlıq etmək niyyətində olduğunu dəfələrlə bəyan edib. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində birgə fəaliyyət digər sahələrdə də əməkdaşlığa təkan verə bilər. Bu, ABŞ-Rusiya əməkdaşlığı üçün münbit platformadır. Tərəflər ümumi məqsədlərə cavab verərək qarşıdurma ehtimalını azalda, münaqişənin sülh yolu ilə həllinə töhfə verə bilər". 1999-2001-ci illərdə ABŞ-ın ATƏT-in Minsk Qrupundakı həmsədri olan Kavano onu da vurğulamışdı ki, Dağlıq Qarabağ münaqişəsinin həlli bütün tərəflərin maraqlarına uyğundur. İndiki vəziyyətdə isə o da faktdır ki, münaqişənin eskalasiyası həm Rusiya, həm də Qərb üçün risqlidir. Vəziyyət gərginləşdiyi halda məsələyə beynəlxalq güclərin qarışması Rusiya və Qərb üçün əlavə problemlər deməkdir. Onların xüsusi maraqlarının olduğu mühüm regionda irimiqyaslı hərbi münaqişə heç də parlaq mənzərə deyil. Məhz bütün bunlar o deməkdir ki, Qarabağ münaqişəsi Rusiya və Qərbə, aralarındakı mövcud ziddiyyətlərə rəğmən, əməkdaşlıq üçün ciddi stimul yaradır.

Aydındır ki, Rusiya və Qərbin Dağlıq Qarabağ münaqişəsinin tərəflərindən çox şey tələb etməsi vacib deyil. Onlar sadəcə, beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə nail olmaqla münaqişənin qısa müddətdə çözümünə nail ola bilərlər. Yalnız bundan sonra hərbi insidentlərin minimuma endirilməsi, yeni müharibə risqlərinin azaldılması mümkünləşə bilər. Eyni zamanda, Dağlıq Qarabağ prosesi sonradan digər postsovet münaqişələrində, məsələn, Abxaziya, Cənubi Osetiya, Donbas məsələsinin tənzimlənməsində tətbiq oluna biləcək uğurlu model ola bilər. Bu modelin işə düşməsi isə Qərb - Rusiya münasibətlərinin yaxlışması-na vacib təkan vermək iqtidarındadır. Başqa sözlə, Qarabağ münaqişəsinin həlli Rusiya - Qərb münasibətlərində mənfi meyillərin dayandırılması istiqamətində bir vasitə ola bilər. Hər halda, Azərbaycan proseslərin məhz bu istiqamətdə inkişaf etməsində maraqlı tərəf kimi çıxış edir.

Digər tərəfdən, Vyana görüşündən az sonra Moskvada görüşün keçirilməsi, bundan dərhal sonra yeni görüş haqqında danışılması və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin də bunu təsdiqləməsi danışıqlar prosesinə yeni dinamizm gəldiyini söyləməyə əsas verir. Burada vasitəçilər nəzərə alır ki, Azərbaycan artıq problemin həll edilməsinin vaxtının çoxdan çatdığını düşünür və bunun üçün ən qətiyyətli addımlar atmağa həm hərbi-iqtisadi, həm də siyasi-diplomatik baxımdan hazırdır. Bakının gücə müraciət etməməsi üçün isə, ABŞ və Rusiya yaxşı başa düşür ki, artıq konfliktin çözümü istiqamətində müəyyən addımlar atılmalıdır. Yuxarıda qeyd olunduğu kimi, bu məsələ ətrafında qarşılıqlı addımlar ABŞ və Rusiyanın öz münasibətləri baxımından da mühüm əhəmiyyət kəsb edir. Bu mənada istisna deyil ki, tərəflər münaqişənin çözümü üçün artıq nəticəsi olan birgə əməkdaşlıq mövqeyi sərgiləyə biləcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Beynəlxalq maliyyə sistemində manata inam və etimadın artdığına yeni sübutlar...

**Maliyyə sektorunda son vəziyyətin təhlili manata, ölkə daxili ilə yanaşı, beynəlxalq miqyasda da etimadın əhəmiyyətli dərəcədə yüksəldiyini göstərir. Ümumiyyətlə, proseslər göstərir ki, qarşıdakı dövr ərzində manat sabit mövqeyini qorumaqla yanaşı, həm də maliyyə əməliyyatlarında əhatəlilik dərəcəsini genişləndirəcək. Elə "Fitch Ratings" təşkilatının son açıqlamaları da göstərir ki, manata etimad artır.**

"Fitch Ratings"in yaydığı hesabata görə, Azərbaycanda 2018-ci ilin sonunda xarici valyutada olan kreditlər ümumi kreditlərin 38%-ni təşkil edib. Bu rəqəm bankların möhkəm sığortası nəticəsində 2015-ci ilin sonunda baş vermiş manatın devalvasiyasından bəri 49%-lik göstəricidən ötən ilin sonuna 38%-ə enib. Cari il ərzində bu göstəricinin daha da azalması gözlənir. Əvəzində manatla kreditlərin miqdarı artır. Eyni zamanda "Fitch Ratings" diqqəti ona yönəldir ki, 2015-2018-ci illər arasında xarici valyutada depozitlər 82%-dən 65%-dək azalıb. Hesab edilir ki, depozitlərdə və kreditlərdə dollarlaşma səviyyəsi azalmaqda, manatla göstəricilər yüksəlməkdə davam edəcək. "Fitch Ratings" onu da bildirir ki, ötən il üzrə xarici valyutada götürülmüş kreditlərin təxminən 16%-i problemli kreditlər hesab olunub ki, bu rəqəm yerli valyutada götürülmüş kreditlər üzrə 10% təşkil edir. Amma Prezident İlham Əliyevin "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı yaxın günlər ərzində bu istiqamətdə vəziyyəti əsasıl surətdə dəyişəcək.

Bir daha xatırladaq ki, həmin fərmanla faktiki olaraq 800 mindən çox vətəndaşın devalvasiya və başqa səbəblərdən banklarla yaranan problemi öz həllini tapmış olacaq. Burada banklar da nəzərə alınıb. Onlara 682 milyon manat məbləğində dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit veriləcək. Eyni zamanda, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına onlara müraciətləri əsasında 215 milyon dollar dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsi təmin olunacaq. Ekspertlərin fikrincə, bütün bu tədbirlər nəticə etibarı ilə bankların kapital mövqeyini möhkəmləndirəcək, onlara aktiv şəkildə kreditləşmə həyata keçirməyə imkan verəcək. Bu isə, öz növbəsində, iqtisadi fəaliyyətin canlanmasına, kiçik və orta sahibkarlığın inkişafı üçün maliyyə mənbələrinin səfərbər olunmasına gətirib çıxaracaq. Digər tərəfdən, məhz bu vəziyyətdə manatla həyata keçirilən əməliyyatların həcminin əhəmiyyətli dərəcədə artması pronozlaşdırılır. Eyni zamanda, həm də əhalinin manat əmanətlərinin həcmində daha böyük artımlar gözlənir.



Ekspertlər bildirir ki, burada həm də son dövrlər pul siyasətinin yumşaldılması ilə bağlı ardıcıl qərarlar monetar şəraitin normallaşdırılmasında əhəmiyyətli rol oynayıb. Xüsusən də Mərkəzi Bank tərəfindən görülən tədbirlər nəticəsində real faiz dərəcəsinin pozitiv zonada olması və əmanətlərin tam sığortalanması müddətinin uzadılması şəraitində milli valyutada yığımlar cəlbedici olaraq qalır. Buna paralel olaraq dollarlaşmada azalma meyli davam edir.Azərbaycanın ixrac etdyi məhsulların həcminin artması, bu fonda ölkəyə gələn valyutanın miqdarında çoxalma da manatın mövqeyini gücləndirir.

Belə bir vaxtda bəlli olub ki, yaxın tezlikdə Cənub-şərqi Avropa üzrə Avropa Fondu da manat istiqrazlar buraxmağa hazırlaşır. Prosesin ilin ikinci yarasında həyata keçməsi gözlənir. Bundan əvvəl isə Asiya İnkişaf Bankı analoji mövqeyini ifadə deib. Qurumun xəzinədarlığının nümayəndə heyəti manat istiqrazlarının buraxılışı və yerləşdirilməsi mexanizmini müzakirə etmək üçün Azərbaycanda səfərdə də olub. Artıq manat istiqrazlarının buraxılışı ilə bağlı razılıq da var.

Sözügedən istiqrazlar özəl sektor üçün sərmayə qoyuluşunu dəstəkləyəcək alternativ maliyyə mənbəyi kimi çıxış edəcək. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə adıçəkələn bank nümayəndələri arasında keçirilən bir sıra görüşlərdə kiçik və orta biznesin inkişaf fondlarının və biznes klasterlərinin əməkdaşlıq imkanları müzakirə olunaraq özəl sektorun inkişafı sahəsində Asiya İnkişaf Bankı ilə əməkdaşlığın zərurəti vurğulanıb, əlaqələrin daha da genişləndirilməsi məsələləri müzakirə olunub.

Manat istiqazları yerləşdirən beynəlxalq maliyyə qurumlarının sayının artması isə milli valyutamızı yüksək beynəlxalq etimadın real təzahürü sayılır.

***Tahir TAĞIYEV***

# "Reket" baş redaktorun məhkəməsində zərərçəkmiş "300 manat verib yazını sildirdim" dedi...



**Bakı Ağır Cinayətlər Məhkəməsində hədə-qorxu ilə tələb etmədə təqsirləndirilən İkram Rəhimovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

"Trend"in məlumatına görə, hakim Əlövsət Abasovun sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş qismində ifadə verən Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Zakir Hüseynov deyib ki, məktəb direktoru işlədiyi vaxtlarda İ.Rəhimov özünü jurnalist kimi təqdim edərək onun barəsində yazı yazıb: "2014-cü ildə bir dəfə zəng etdi ki, maşını qırılıb, yolda qalıb.

**Mən də pul verdim. Sonra da mütəmadi olaraq pul istədi. Barəmdə yazı yazacağını bildirirdi".**

Zərərçəkmişin ifadəsinə etiraz edən təqsirləndirilən şəxs deyib ki, Z.Hüseynov əvvəllər çalışdığı "Hürriyyət" qəzetinə abunə olub və pulu da buna görə verib.

Prosesdə ifadə verən digər zərərçəkmiş, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Şabran rayonu üzrə 5 saylı Ərazi şöbəsinin direktoru Rafiq Əbilov isə İ.Rəhimovu şəxsən tanımadığını deyib: "İkram Rəhimovu şəxsən tanımamışam. Onun saytında barəmdə yazı yazılmışdı. Həmin yazını tanışım vasitəsilə sildirib 300 manat göndərdim. Hazırda İkram Rəhimovdan şikayətçi deyiləm".

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsinin yaydığı məlumata əsasən, Azərbaycan vətəndaşı Rəhimov İkram Rafiq oğlunun tabeliyində olan şəxslərlə birlikdə "Realliq.info" və digər "reket" informasiya saytları yaradıb, həmin internet qəzetlərin jurnalistləri adı altında ayrı-ayrı vətəndaşların barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mətbu orqanlarında müntəzəm yayıb dayandırılması müqabilində pul tələb etməsi və alması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplaması barədə daxil olmuş çoxsaylı şikayətlər DTX-də araşdırılıb.

Bildirilib ki, məhkəmə qərarı əsasında aparılan əməliyyat tədbirləri ilə İ.Rəhimovun əlaqəsində olan şəxslərlə birgə göstərilən silsilə cinayət əməlləri müfəssəl qeydə alınıb.

**O, ötən il oktyabrın 26-da Cinayət Məcəlləsinin 182.2.1 və 182.2.2-ci maddələri üzrə (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən hədə-qorxu ilə tələb etmə) cinayət əməllərində şübhəli şəxs kimi saxlanaraq cinayət məsuliyyətinə cəlb edilib.**

Cinayət işində 6 zərərçəkmiş var.

# Kənd təsərrüfatımız inkişaf edirsə - ət idxalının 17 faiz artımı anlaşılmaz paradoks kimi...

**Rəsmi hesablamalara görə, cari ilin ilk üç ayında Azərbaycana keçən ilin analoji dövrü ilə müqayisədə 17 faiz çox ət idxal olunub. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan əhalisi maldarlığa meylli olsa da, son zamanlar bu sahədə geriləmə baş verir.**

*"...həmin sahibkarlar artıq, demək olar ki, heyvandarlıqla məşğul olmurlar"*

Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-mart aylarında Azərbaycan 18,149 milyon dollar dəyərində 13,033 min ton ət idxal edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 4,94 mln. dollar (37,4%) və 4,312 min ton (49,4%) çoxdur. Hesabat dövründə ət idxalı Azərbaycanın ümumi idxalının 0,6 faizini təşkil edib.

Ət idxalında müşahidə olunan ilbəil artım təəccüb doğurmaya bilmir. Məsələ ondadır ki, son illər ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı bir sıra proqramlar qəbul olunub. Çoxsaylı aqropark tikilib. Bu sahədə önəm verilən sahələrdən biri də heyvandarlıq olub. Ötən illər ərzində dövlət vəsaiti hesabına xaricdən baha qiymətə bir sıra cins heyvanlar gətirilib. Eyni zamanda, həmin heyvanlara qulluq edilməsi ilə bağlı mütəxəssislər xaricdə təcrübə keçiblər. İdxal olunan mal-qara fermerlərə lizinq yolu ilə verilib. Bununla bağlı bir sıra layihələr həyata keçirilib. İndinin özündə də bu yöndə işlər görülür. Heyvandarlığın inkişafı ilə bağlı bir sıra xarici ölkələrin təcrübəsi öyrənilir və s.

Belə olan halda, Azərbaycanda ət idxalı niyə artır? Bununla bağlı görülən işlər niyə səmərə vermir? Problemin kökündə nə dayanır?

**Məsələyə münasibət bildirən kənd təsərrüfatı üzrə mütəxəssis Vahid Məhərrəmov bunu bir sıra faktorlarla əlaqələndirdi. Onun fikrincə, ət idxalının son 3 ayda artmasına səbəb olan amil ölkədəki örüş yerlərinin pambıq əkininin ixtiyarına verilməsidir:** "Problem ondadır ki, ümumilikdə, ölkəyə gətirilən ətin həcmi istehlak olunan ətin 12 faizi qədərdir. Bu onu deməyə əsas verir ki, onsuz da Azərbaycan az ət istehsal və az istehlak edən ölkədir. Digər tərəfdən, get-gedə ət idxalından asılılıq artır. Bunun da səbəbi uzun müddətdir

***Vahid Məhərrəmov:** "Bunun səbəbi ölkədə ətlik istiqamətində hər hansı bir sanballı işin həyata keçirilməməsidir"*



Azərbaycanda ətlik istiqamətində hər hansı bir sanballı işin həyata keçirilməməsidir. Son zamanlar isə 200 min hektar örüş sahəsi pambıq və taxıl əkininin ixtiyarına verilib. Bununla da həmin ərazilərdə heyvandarlıqla məşğul olan əhalini məcbur etdilər ki, onlar heyvanlarını kəsimə versinlər. Nəticədə həmin sahibkarlar artıq, demək olar ki, heyvandarlıqla məşğul olmurlar. Bütün bunlar nəticədə ət idxalına təkan verir. Yaranmış problem həm də bu sahədə işin yaxşı təşkil olunmaması ilə bağlıdır. Bu da onunla bağlıdır ki, pambıq və baramaçılığa daha çox yer verilir. Örüş yerlərinin pambığın ixtiyarına verilməsi belə vəziyyətin yaranmasına gətirib çıxarır. Ona görə də bu istiqamətdə sistemli tədbirlər görülməlidir".

***Vidadi ORDAHALLI***

# Əmanətlərin dollarlaşma həddinə görə Azərbaycanın Qafqazda ən üstün yeri pis beynəlxalq qiymət alır...

**Azərbaycanın bank sektoru sabitləşsə də, hələ də yüksək səviyyədə olan dollarlaşma bankları yerli valyutanın qiymətdən düşməsinə həssas yanaşmağa məcbur edir. Bu barədə nufuzlu "Fitch Ratings" agentliyi məlumat yayıb.**

*"Dollar depozitləri üzrə faiz dərəcələri aşağı salınsa da, bu, sözügedən sahədə proseslərə ciddi təsir göstərə bilməyib"*

Agentliyin məlumatına görə, 2018-ci ilin sonunda xarici valyutada olan kreditlər ümumi kreditlərin 38 faizini təşkil edib. Bu rəqəm bankların möhkəm sığortası nəticəsində 2015-ci ilin sonunda baş vermiş manatın devalvasiyasından bəri 49 faizdən aşağı düşüb. Həmin dövr ərzində depozitlər 82 faizdən 65 faizədək azalıb. Mövcud tənzimləyici xalis açıq xarici valyuta mövqeyi 2017-ci ilin sonunda 1,4 milyard dollar səviyyəsindən 2018-ci ilin sonunda 0,9 milyard dollar səviyyəsinə dəyişib.

O da qeyd olunur ki, bütün bunlara baxmayaraq, depozitlərdə və kreditlərdə dollarlaşma səviyyəsi hələ də nisbətən yüksək olaraq qalır. O da məlum olub ki, Azərbaycanda depozitlərdə dollarlaşma Cənubi Qafqazda ən yüksək səviyyədədir və bu, bankların yerli valyuta kreditlərini genişləndirmək qabiliyyətini məhdudlaşdırır. Ötən il üzrə xarici valyutada götürülmüş kreditlərin təxminən 16 faizi problemli kreditlər hesab olunub ki, bu rəqəm yerli valyutada götürülmüş kreditlər üzrə 10 faiz təşkil edir.

Görünən odur ki, bankla ra inamın azalması səbəbindən əmanətçilər depozitlərini dollarda saxlayırlar. Dollar əmanətləri üzrə faiz dərəcələri kəskin azaldılsa da, yenə də depozit qoyuluşunda dollara maraq yüksəkdir. Digər tərəfdən, statistik təhlillər göstərir ki, bankların öhdəliklərində bütün mənbələr üzrə depozitlərin payı ötən il 78 faizə çatıb. Halbuki, devalvasiyadan öncə bu rəqəm 60 faizə yaxın olub. Depozitlərdən yüksək asılılıq kredit faizlərinin depozit faizlərindən asılılığına gətirib çıxarır. Bu da kredit faizlərinin aşağı düşməsinə imkan vermir. Banklar da bir sıra hallarda bu amillərdən sui-istifadə edirlər. O baximdan bu sahədə yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyevin sözlərinə görə, belə vəziyyətin yaranması daha çox əmanətçilərin inamı ilə bağlı olan məsələdir:** "Problem ondadır ki, hələ də əmanətçilərdə milli valyutaya inam tam formalaşmayıb. Çünki 2015-ci ildə baş verən 2 devalvasiya əfsuslar olsun ki, əmanətçilərin milli valyutaya inamını tam sarsıtdı. Ona görə də dollarlaşma prosesi sürətlə getdi. Əmanətçilər kütləvi şəkildə öz vəsaitlərini dollara çevirdilər. Bu səbəbdən depozitlərdə dolların çəkisi üstündür. Dollar depozitləri üzrə faiz dərəcələri aşağı salınsa da, bu, sözügedən sahədə proseslərə ciddi təsir göstərə bilməyib. Bu da milli valyuta ilə aşağı faizlə kredit verilməsinə mane olan faktorlardan biridir. Milli valyutanın stabilliyi, dönərliyi qorunub saxlandıqca, uzunmüddətli dönəmdə manata inam artacaq. Qısa müddətdə bu sahədə vəziyyəti dəyişmək mümkün deyil.

***Ruslan Atakişiyev:** "Problem ondadır ki, hələ də əmanətçilərdə milli valyutaya inam tam formalaşmayıb"*



Dollarla qoyulan depozitlərin sığortalanan hissəsi 3 faizdir. Bu o deməkdir ki, sabah hər hansı bir bankın likviditliyi pozulsa, bank bağlansa, Əmanətlərin Sığortalanması Fondu yalnız sığortalanan hissəni qaytaracaq. Əmanətlərin yerdə qalan hissəsi batacaq. Çünki bankın bunu qaytarmaq imkanı olmayacaq. Bütün bunlara baxmayaraq, əmanətçilər depozitlərini dollarda yerləşdirməyə üstünlük verirlər. Ona görə də burada risqlərin böyük hissəsi milli valyuta ilə bağlıdır. Ancaq buna rəğmən, gözləmək lazım deyil ki, manata inam nə vaxt artacaq. Bazarda ucuz kredit resurslarına çıxış imkanları və bununla bağlı təklif artsa, o zaman milli valyuta ilə verilən kreditlərin həcmi də arta bilər".

***Vidadi ORDAHALLI***

**Problemli kreditlərin həlli ilə bağlı imzalanmış sərəncamdan sonra martın 28-də müvafiq siyahı açıqlanıb.**

***Elşən Allahverdiyev:*** *"...elektron portalda "Apelyasiya komissiyasına müraciət" bölümü yaradılıb"*

***Elşad Məmmədov:*** *"Kompensasiya alacaq şəxslər siyahısında adını tapa bilməyənlər Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət etməlidirlər"*

# Problemli kreditlərə görə kompensasiya alacaq bəzi vətəndaşlar üçün siyahı problemi yaranıb

Bildiyimiz kimi, Maliyyə Bazarlarına Nəzarət Palatası (Palata) bir müddət əvvəl problemli kreditlərin hesablanmasını həyata keçirib və kompensasiya alacaq vətəndaşların siyahısını hazırlayıb. Tam siyahı isə aprelin 15-də açıqlanıb. Kompensasiya alacaq şəxslər siyahıda adlarını axtarmağa başlayıblar. Ancaq bəzi vətəndaşlar adlarını siyahıda tapmaqda çətinlik çəkirlər. Əsasən bağlanmış banklarda kreditləri olan vətəndaşlar adlarını siyahıda tapmaqda çətinlik çəkirlər.

**Məsələ ilə bağlı məlumat verən Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat katibi Elşən Allahverdiyev qeyd etdi ki, həmin vətəndaşlar üçün palatanın rəsmi saytında bölüm yaradılıb:** "Adları siyahıda tapılmayan, ancaq onlara kompensasiya və ya restrukturizasiya şamil edilməsindən əmin olan vətəndaşlar üçün elektron portalda "Apelyasiya komissiyasına müraciət" bölümü yaratmışıq. Həmin bölümdə müvafiq xanaları dolduraraq şikayət edə bilərlər. Apelyasiya komitəsi ona baxır və 15 iş günü müddətində vətəndaşa cavab verilir. Həqiqətən, ola bilər ki, hansısa texniki məsələ ilə bağlı həmin şəxsin adı siyahıda çıxmayıb".

**İqtisadçı-ekspert Elşad Məmmədov bizimlə söhbətində qeyd etdi ki, problemli kreditlərlə bağlı Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamda konkret olaraq qeyd olunur ki, həmin**




**ərəfədə bütün kommersiya banklarından kredit götürmüş şəxslərə kompensasiya ödəniləcək. Eynilə, bağlanmış banklardan vaxtilə kredit götürən şəxslər də kompensasiya almalıdırlar:** "Problemli kreditlərlə bağlı ödənişin edilməsinə və digər problemlərin həll olunmasına nəzarət Maliyyə Bazarlarına Nəzarət Palatasına tapşırılıb. Kompensasiya alacaq şəxslər siyahısında adını tapa bilməyənlər Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət etməlidirlər. İcra mexanizmi ilə bağlı konkret işlər hazırlanıb və müvafiq qərarda da göstərilib".

***Günel CƏLİLOVA***

**Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı-Xəbər"ə verilən məlumata görə, 2018-ci ilin dekabr ayının 21-də Prezident İlham Əliyevin "Yaşıl dəhliz" buraxılış sisteminin tətbiqinə dair imzaladığı fərmana əsasən, gömrük və vergi orqanları ilə münasibətdə, ümumilikdə, maliyyə-uçot sistemində ciddi nöqsanları olmayan xarici ticarət iştirakçıları bu sistemdən istifadə edərək gömrük orqanları və ya əməkdaşları ilə təmasda olmadan, mallarını və nəqliyyat vasitələrini gömrük-keçid məntəqələrindən prioritet qaydada gözləmədən və gömrük nəzarətinin hər hansı növü tətbiq edilmədən anbarlarına apararaq müstəqil şəkildə boşalda və ya gömrük təminatlarını nəqliyyat vasitələrinə vuraraq birbaşa ixraca göndərə bilərlər.**

# Azərbaycan Gömrük Komitəsi əleyhinə "Yaşıl dəhliz"də ayrıseçkilik ittihamı...

## *Komitənin cavabı daha sərrast oldu*




Qeyd edək ki, bu zaman həmin şəxslər gömrük əməkdaşı ilə təmasda olmur və bütün gömrük əməliyyatları internetə çıxış imkanı olan istənilən məkandan elektron qaydada həyata keçirilir.

Dövlət Gömrük Komitəsi sözügedən fərmanın icrası ilə bağlı xüsusi komissiya yaradaraq sistemin tətbiq mexanizmlərini hazırladı və cari ilin fevral ayının 1-dən etibarən sistemin tətbiqi uğurlu şəkildə həyata keçirildi. 2,5 ay ərzində sistemdən istifadə etmək üçün Komitəyə 500-dən çox müraciət daxil olub və onlardan 300-ə qədəri artıq müsbət cavablandırılıb. Onu da qeyd edək ki, regionda və MDB məkanında analoqu olmayan bu layihə yalnız dünyanın inkişaf etmiş ölkələrində tətbiq edilir və Azərbaycan gömrüyünün bu sahədəki fəaliyyəti və təcrübəsi beynəlxalq aləmin mötəbər qurumları və ekspertləri tərəfindən yüksək qiymətləndirilir.

Lakin ölkəmizin əldə etdiyi bu nailiyyətlər bəzi dairələr və onların mediadakı nümayəndələri tərəfindən qaralanmağa çalışılır, "Yaşıl dəhliz" sisteminin tətbiqi ilə bağlı gömrük orqanlarına qarşı əsassız ittihamlar irəli sürülür. Bəzi internet xəbər portalları "sahibkarlardan daxil olan müraciətlər"ə əsaslanaraq "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə hüququnun əldə edilməsi ilə bağlı müraciətlərə guya Dövlət Gömrük Komitəsinin subyektiv yanaşdığını iddia edirlər. Bundan başqa, yazıda indiyə qədər 53 müraciətin müsbət cavablandırıldığı, müraciətlərə baxılarkən "ayrıseçkiliyə" yol verildiyi irəli sürülür.

Müraciətlərə baxılarkən ayrıseçkiliyə yol veilməsi ilə bağlı Dövlət Gömrük Komitəsi bildirir ki, gömrük işinin təşkilinin bütün sahələrində olduğu kimi, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadəyə dair bütün müraciətlər tam şəffaf və obyektiv şəkildə araşdırılır. Bununla bağlı Komitənin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılıb və 24 saat fəaliyyət göstərən dəstək qrupu fəaliyyət göstərir. Aşağıdakı linkdən də bu barədə ətraflı məlumat almaq olar.

http://customs.gov.az/az/faydali/innovativ-layiheler/green-corridor/ Sistemdən istifadə edənlərin sayına gəlincə isə bu rəqəm 53 deyil. İndiyə qədər sistemdən istifadəyə dair 500-dən çox müraciət daxil olub və onlardan 300-ə qədəri müsbət cavablandırılıb. Üstəlik, bu barədə dəfələrlə nəinki Komitənin rəsmi açıqlamalarında, hətta kütləvi informasiya vasitələrində minlərlə açıqlama yayımlanıb.

O da iddia edilir ki, sistemdən istifadə etmək istəyənlər İKT sahəsində yüksək bilik və bacarıqlara malik olmalı və ya bu sahədə ixtisaslaşmış mütəxəssisi işə götürməlidirlər ki, bu da sahibkarlar üçün əlavə xərc deməkdir. 21-ci əsrdə xarici ticarətlə məşğul olan şəxsin və ya şirkətin İKT biliklərinə və ya bu sahədə ixtisaslaşmış kadrlara malik olmaması absurddur. Üstəlik, "Yaşıl dəhliz" buraxılış sistemi tamamilə informasiya texnologiyaları sahəsindəki ən son yeniliklər tətbiq olunmaqla həyata keçirilir və bunun üçün tələb olunan vəsait xarici ticarətlə məşğul olanlar üçün cüzi sayılacaq qədər azdır.

Yazıda "Belə ki, "Yaşıl dəhliz"dən istifadə etməyənlər növbə gözlədiyi halda, gömrük keçidindən "Yaşıl dəhliz" istifadəçiləri növbədənkənar keçməsilə, uzun vaxt ərzində növbədə gözləyənlərə pis təsir bağışlayırlar. Bu isə sahibkarlar arasında da çaşqınlıq yaradır" cümlələri isə gülünc və xüsusilə diqqətçəkicidir. Bu cümlələri yazan "sahibkar" və onu dərc edən media orqanı düşünür ki, "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edənlərə məxsus mal və nəqliyyat vasitələrinin gömrük-keçid məntəqəsindən gözləmədən, gömrük nəzarətinə məruz qalmadan keçməsi digər sahibkarlarda ruh düşkünlüyü yaradır və bu da ölkənin ixrac potensialını aşağı salır. Bu təfəkkür sahiblərinin ölkənin strateji qurumlarından birinin həyata keçirdiyi mütərəqqi ideyalara söykənən layihəyə necə qiymət verəcəyi, hansı meyarlarla dəyərləndirəcəyi isə onların düşüncə tərzindən məlum olur. Tarix göstərir ki, mütərəqqi ideyalar, qabaqcıl texnologiyalar hər zaman cəmiyyəti irəli aparıb. Ruh düşkünlüyü yaşayanlar isə hər zaman müasir düşüncə tərzinə, yeniliklərə ayaq uydura bilməyənlərdir. Onu da xatırladaq ki, məqalənin sonunda adları qeyd olunan şəxslərdən isə nəinki "Yaşıl dəhliz" buraxılış sistemindən istifadəyə dair, ümumiyyətlə, Dövlət Gömrük Komitəsinə hər hansı müraciət daxil olmayıb.

**Bu gün Azərbaycanda fəaliyyət göstərən orta ümumtəhsil məktəbləri, eləcə də müəllimlər kütləvi olaraq ictimaiyyətin tənqid, qınaq obyektinə çevriliblər. Cəmiyyətdə şagirlərlə bağlı hər hansı kiçik neqativ bir hal qeydə alınanda belə hadisəni törədənlər bir kənarda qalır, yenə "günahkar" obrazında məktəb hədəfə alınır. Son zamanlar Azərbaycanın orta ümumtəhsil sisteminə kor-korana, haqsız hücumlar edilir.**

## Şagird atanı eşitmir - günahkar məktəb, qəbul olmadı - günahkar nazir, geyim səliqəsiz - günahkar direktor...

# Azərbaycanın ümumtəhsil sisteminə qarşı təhlükəli kampaniyaçılıq əlamətləri...

***Buludxan Xəlilov:** "Azərbaycanı istəməyən xarici dövlətlərin kəşfiyyat orqanları, müxtəlif ölkələrin maraq dairəsində olan qüvvələr ölkəmizin ümumtəhsil sistemini, müəllimi gözdən salmaqla cəmiyyətimizi rəzil vəziyyətə salmaq istəyirlər"*





*"... tədrisdə gedən proseslərin mahiyyətindən xəbərsiz olan insanlar müəllim, məktəb haqqında fikir yürütməyə başlayıblar"*

Elina Haciyevanın intihar hadisəsindən sonra məktəblərə qarşı hücum kampaniyasının həlqəsi bir qədər də genişlənib. Elinanın başına gələn o hadisə məktəbdə deyil, başqa bir yerdə də baş verə bilərdi. Sözsüz, yeniyetmənin faciəsi hər birimizi kədərləndirdi, təəssüfləndirdi. Bu və ya digər hallar cəmiyyətə imkan vermir ki, yeri gəldi-gəlmədi, məktəb haqqında mənfi təsəvvür formalaşdırsın. Bəzi narahat ailələr var və o ailələrdəki vəziyyət təbii ki, uşaqlara da sirayət edir, onların psixikasını zədələyir. Bu cür ailələrin uşaqları bir çox hallarda valideyn diqqətsizliyindən əziyyət çəkirlər. Bu hal uşaqların davranışlarında əks olunur. Bəzən elə ailələrin uşaqları məktəbdən kənarda da, elə ailələrin özündə də təzyiqlə üzləşirlər. Bu halda valideyn qalır bir tərəfdə, hamı müəllimin, məktəbin üzərinə yeriyir ki, bəs günahkar məktəbdir, şagirdlərə nəzarət etmir. Bütün baş verənlər onu göstərir ki, məktəblərə qarşı bu cür əsassız hücumlar sanki hansısa pərdə arxasında qalan qara qüvvələr tərəfindən idarə olunur. Burada birbaşa hədəf kimi Azərbaycanın ümumtəhsil sistemi götürülür və məktəblərin nüfuzdan salınmasına çalışılır. Belə olmasaydı, baş verən bədbəxt hadisəyə görə təkcə bir məktəb deyil, bütövlükdə, Azərbaycanın ümumtəhsil sistemi götürülməzdi. Halbuki, hadisə bir məktəbdə yaşanıb, bu hal başqa məktəblərdə müşahidə edilməyib.

### "O qüvvələrə imkan verməməliyik ki, öz çirkin əllərini ümumtəhsil sistemimizə, müəllimimizə uzatsınlar"

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanın ümumtəhsil sisteminin gözdən salınması istiqamətində aparılan bu kampaniyanın hansısa qüvvələr tərəfindən idarə olunduğu şübhə doğurmur.** B.Xəlilov hesab edir ki, onların hədəfi milli ümumtəhsil sistemimizin və müəllimlərimizin nüfuzdan salınmasıdır. "Bu gün bu xoşagəlməz kampaniyanın hansısa qara qüvvələr tərəfindən idarə olunduğu görsənir. Azərbaycanda artıq formalaşan pedaqoji ənənə var və bu da çoxlarını narahat edir. Azərbaycanı istəməyən xarici dövlətlərin kəşfiyyat orqanları, müxtəlif ölkələrin maraq dairəsində olan qüvvələr ölkəmizin ümumtəhsil sistemini, müəllimi gözdən salmaqla cəmiyyətimizi rəzil vəziyyətə salmaq istəyirlər. Bir ölkədə nəyisə məhv etmək, aşağı səviyyəyə salmaq üçün onun məktəbini, müəllimini nüfuzdan salmağı hədəfə götürürlər. Ona görə də müəllimi, məktəbi hörmətdən salmaqla cəmiyyəti hörmətdən salırlar. Bu məsələ məqsədli şəkildə həyata keçirilir. Ona görə də biz ziyalılar, ictimaiyyət nümayəndələri, cəmiyyət bu məsələyə qarşı barışmaz mövqe nümayiş etdirməliyik. Çalışmalıyıq ki, belə qaraguruhçu qüvvələrin məkrli planları nəticəsində məktəbimiz, müəllimimiz nüfuzdan düşməsin. Biz müəllimin nüfuzunu qaldırmağa çalışmalıyıq. O qüvvələrə imkan verməməliyik ki, öz çirkin əllərini ümumtəhsil sistemimizə, müəllimimizə uzatsınlar" - deyə B.Xəlilov bildirdi.

### "Bütün qüsurları müəllimdə görməklə məqsədli şəkildə müəllim obrazını hörmətdən salırlar"

B.Xəlilovun sözlərinə görə, bu gün Azərbaycanın ümumtəhsil sistemi, məktəblər cəmiyyətin bütün üzvlərinin qınağına səbəb olur. Bu qınağın yersiz və haqsız olduğunu deyən B.Xəlilov hesab edir ki, Azərbaycan məktəblərinin hədəf götürülməsi cəmiyyətin özünə zərər verir: "Sizin gündəmə gətirdiyiniz mövzu olduqca aktualdır. Təhsil milli strateji maraq dairəsində olan bir sahədir, cəmiyyətin hər bir üzvünün maraq dairəsindədir. Təhsil cəmiyyətin güzgüsüdür. Bu gün təhsildə problem varsa da, bunun kökünü təhsil işçilərində axtarmaq lazım deyil. Təhsildə problem varsa, bu o deməkdir ki, bizim hər birimizin bu sistemdə oynayacağımız rol yerində deyil. Çox təəssüflər olsun ki, hər kəs cəmiyyətdə baş verən istənilən problemlə bağlı təhsil işçilərinin üstünə hücumlar edir. Bir nəfər yaxşı vətəndaş deyilsə, onun da günahını müəllimdə axtarırlar. Biri yaxşı oxumursa, yaxud da hansısa valideynin övladı qəbul imtahanlarında yaxşı bal toplaya bilmirsə, yenə də təhsil işçisi günahkar sayılır. Ancaq nəzərə almırlar ki, təhsil işçiləri qədər Azərbaycan cəmiyyətinə fayda verən, işləyən, dövlətimizin ideologiyasını həyata keçirən ikinci bir peşə sahibi yoxdur. Mənə bir müəllim göstərin ki, o, sinfə girib şagirdə "oxuma, nizam-intizamsız ol" desin. Elə bir müəllim var? Xeyr. Müəllimlik elə bir sənətdir ki, bu işlə məşğul olanlar müəllimliyə başladığı ilk gündən sona qədər həmişə ciddi rejimdə olurlar. Müəllimlik fədakarlıqdır. Özünü fədakarlıqla cəmiyyətə həsr edən müəllimi belə halda nüfuzdan salmaq, ona hücumlar etmək nə dərəcədə doğrudur? Çox təəssüflə qeyd edirəm ki, Azərbaycan cəmiyyətində müəllimə qarşı ideoloji bir hücum başlayır. İncimək lazım deyil, bəzən jurnalistlər də belə insanların fikirlərini tirajlayırlar. Bir də görürsən ki, təhsildən anlayışı olan da, olmayan da müəllimin bilik səviyyəsini müzakirəyə çıxarır. Onlar bilmirlər ki, müəllim hər gün öz üzərində işləyir. Müəllim qədər oxuyan, öz üzərində işləyən ikinci bir sənət sahibi var? Digər tərəfdən, bütün qüsurları müəllimdə görməklə məqsədli şəkildə müəllim obrazını hörmətdən salırlar. Haqqı çatan da, çatmayan da müəllim haqqında fikir yürüdür. Heç bir cəmiyyətin müəllimi təhlil etməyə, təftiş etməyə haqqı yoxdur. Cəmiyyətdə müəllimi təhlil etməyə ancaq haqqı çatan adamların haqqı var. Müəllim Təhsil Nazirliyinin işçisidir. Təhsil Nazirliyinin görəcəyi işi az qala cəmiyyət öz üzərinə götürüb. Cəmiyyət üzvləri sanki nazir, prokuror səviyyəsində müəllimlərin işini təhlil edir, onlara qarşı ittihamlar irəli sürürlər. Nəyə görə cəmiyyətdə müəllimin nüfuzu bu qədər düşüb? Ona görə ki, Azərbaycan cəmiyyətində müəllim haqqında fikir yürüdənlərin sayı çoxalıb. Müəllimliyin, təhsilin, müəllim-şagird münasibətlərinin nə olduğunu bilməyən, tədrisdə gedən proseslərin mahiyyətindən xəbərsiz olan insanlar müəllim, məktəb haqqında fikir yürütməyə başlayıblar. Onlar müəllimin, məktəbin mənfi obrazını yaradırlar. Ona görə də Azərbaycan cəmiyyətində müəllimin nüfuzu aşağı düşüb. Hesab edirəm ki, müəllimə hər bir insan, bütün cəmiyyət borcludur. Real danışaq, bu gün bir çox valideyn evində uşağının təlim-tərbiyəsi ilə məşğul ola bilmir. Ancaq gündə 6-7, bəzən 12-13 saat həyatını məktəbə bağlayan müəllim müxtəlif ailələrdən gələn uşaqların təlim-tərbiyəsi ilə məşğul olur, onlara bilik verir, düz yola çəkir, ancaq müəllimin zəhmətini, alın tərini götürüb kənara atırlar. Belə olmaz. Öz övladı ilə məşğul ola bilməyən valideynlər bütöv bir şagird ordusunun formalaşmasında, təlim-tərbiyəsində mühüm rol oynayan müəllimlərə qarşı mənfi rəy formalaşdırırlar. Bununla da cəmiyyətdə bütün dəyərləri heçə endirirlər".

B.Xəlilov qeyd etdi ki, bu gün valideynlər nə dərəcədə müəllimlə, məktəblə əl-ələ verib təhsili irəli aparır sualına cavab verilməlidir. Onun sözlərinə görə, valideyn var ki, heç övladının dərsə necə gedib-gəldiyindən, dərslərini necə oxuduğundan xəbərsizdir, övladı ilə maraqlanmaq üçün bir dəfə məktəbə gəlmir. "Bu gün təəssüf ki, vaxtilə mövcud olan məktəb-valideyn əlaqələri itib. Çox valideyn uşaqları ilə maraqlanmır. Bu adamlar övladla maraqlanmır, onlara hansı müəllimin dərs deməsindən xəbərsizdirlər. Ancaq Allah eləməsin, bir problem olan kimi, məktəbə, müəllimə hücum etməyə başlayırlar. Müəllim çıxılmaz vəziyyətdə qalıb. Müəllimlər şagirdə tələbkarlıqla yanaşsa, onu da qüsur tuturlar, danlasa da həmçinin. Müəllim necə olmalıdır? Müəllimlər cəmiyyətlə necə işləməlidirlər ki, cəmiyyəti razı sala bilsinlər. Biz müəllim obrazları görmüşük və o obrazların şinelindən çıxmışıq. Ona görə də mən cəmiyyətdən çox şey umuram. Ziyalılardan da həmçinin. Ziyalılardan onu umuram ki, onlar Azərbaycan cəmiyyətində təhsilin inkişafı üçün görüləcək işlərdə, təhsilin irəli getməsi üçün öz sözlərini deməlidirlər. Ziyalıları ümumtəhsil məktəblərinə qarşı təşkil edilən hücumların qarşısının alınması istiqamətində həmrəyliyə çağırıram. Ziyalılar bu məsələdə öz mövqelərini bildirməlidirlər" - deyə professor B.Xəlilov bildirdi.

***İradə SARIYEVA***




# "Azərbaycan Dəmir Yolları"nda işçilər üç dəfəyədək ixtisar ediləcək (?) - Auditdən inanılmaz xəbər...

**Bir sıra KİV-də 2022-ci ilə qədər "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) əməkdaşlarının sayının 3 dəfədən çox azaldılmasının nəzərdə tutulduğu ilə bağlı informasiyalar yayılıb. Həmin məlumatda qeyd edilir ki, bunu dövlət müəssisəsinin auditini həyata keçirən KPMG audit şirkəti bəyan edib.**

Audit nəticəsində məlum olub ki, ADY-nin işçi heyətinin sayı təxminən 22 min nəfərdir və bu rəqəmin 6 422 nəfərə qədər azaldılması, orta aylıq əməkhaqqının isə 596 manat təşkil etməsi tövsiyə olunub.

Bu o deməkdir ki, qarşıdakı 3 ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin rəisi Cavid Qurbanov hər il orta hesabla 5 min, ümumilikdə isə 15 mindən artıq əməkdaşı işdən azad edəcək. Onda sual olunur: belə kütləvi ixtisardan sonra "Azərbaycan Dəmir Yolları" anonsunu verdiyi böyük layihələri necə həyata keçirəcək? Bundan əlavə, hakimiyyətin yürütdüyü kursdan görünür ki, hazırda maksimum dərəcədə dövlət müəssisələrində ixtisarların aparılmamasına çalışılır. Onda isə audit təşkilatına istinadən yayılan bu məlumatı nə dərəcədə əsaslı saymaq olar?

**Məsələyə aydınlıq gətirmək üçün "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Sevinc Qədirova ilə əlaqə saxladıq. Qurum təmsilçisi "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yayılan məlumat həqiqəti əks etdirmir:** "Biz də bu məlumatı görüb təəccübləndik. Sözügedən audit qurumu ADY-də auditi yaxın zamanlarda aparmayıb. Səhv etmirəmsə, onların bu auditi 2017-ci ildə həyata keçirilib. Həmin vaxt belə bir informasiyanın yayıldığının da şahidi olmamışıq. Bu məlumatı yayan ilkin mənbə agentliklərdən biridir. Başa düşə bilmirəm ki, onlar hansı məntiqlə, bizimlə dəqiqləşdirmədən, həqiqəti əks etdirməyən belə informasiyanı cəmiyyətə necə təqdim ediblər? Əminliklə deyirəm ki, KPMG adlı təşkilat bu yaxınlarda bizim qurumda heç bir audit yoxlaması aparmayıb. Bilirsiniz ki, hazırda ADY tərəfindən böyük layihələr icra edilir. Deyilən sayda ixtisarın aparılması olarsa, biz həmin layihələri necə icra edərik? Əksinə, biz hazırda gənc kadrların işə cəlb edilməsində xüsusilə maraqlıyıq. Belə kütləvi ixtisardan söz gedə bilməz. ADY-nin perspektivdə hansı işləri görməsi ilə bağlı məlumatla siz bizim sayt vasitəsilə məlumat əldə edə bilərsiniz. Orada sizin sualınıza tam cavabı tapa bilərsiniz. Eyni zamanda, mənim açıqlamamın həqiqət olduğu öz təsdiqini tapmış olacaq".

S.Qədirovanın tövsiyəsi əsasında biz ADY-nin saytının məlum bölümündə qurumun gələcək perspektiv fəaliyyəti ilə bağlı dolğun məlumata rast gəldik. Həmin məlumatda qeyd olunur ki, 2016-cı ilin sonundan etibarən Asiya İnkişaf Bankının (AİB) texniki dəstəyi və "Azərbaycan Dəmir Yolları" QSC-də (ADY) mövcud mənbələrdən dəstəklə, Dəmiryol Sektorunun İnkişafı Proqramına başlanıb: "ADY QSC-də, AİB-ın köməkliyi ilə, Siyasət və Layihə Krediti ilə əlaqədar korporativ, institusional, maliyyə və insan resursları islahatlarının keçirilməsi planlaşdırılır.

## Sevinc Qədirova: *"Hansı məntiqlə, bizimlə dəqiqləşdirmədən, həqiqəti əks etdirməyən belə informasiyanı cəmiyyətə necə təqdim ediblər?"*

**Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında 19 dekabr 2017-ci il tarixində 250 mln. ABŞ dolları məbləğində Dəmiryol Sektorunun İnkişafı Proqramı üçün kredit müqaviləsi (siyasət krediti) və 150 milyon ABŞ dolları məbləğində Dəmiryol Sektorunun İnkişafı Layihəsi üçün kredit müqaviləsi (layihə krediti) bağlanıb. Fransa İnkişaf Agentliyi ilkin olaraq hər iki layihə üzrə birgə maliyyələşdirməni həyata keçirmək üçün dəstək verməyə razılığını bildirib. Həmçinin, Azərbaycan Hökuməti tərəfindən, ümumilikdə, 150 mln. ABŞ dolları məbləğində kredit vəsaitinin ayrılmasına qərar verilib.**

Bu kredit iki tranşdan ibarətdir. Hökumət və ADY QSC tərəfindən 23 islahat tədbirinin həyata keçirilməsini tələb edən "Tranş 1" və əlavə 22 tədbirin həyata keçirilməsini tələb edən "Tranş 2" razılaşdırılıb və müqavilə şərti qismində kredit müqavilələrinə əlavə edilib.

İslahatların uğurla həyata keçirilməsindən sonra, 2022-ci ilə qədər Azərbaycanda dəmir yolu xətlərinin xidmət keyfiyyətinin yaxşılaşacağı, həmçinin, dəmir yolları əməliyyatlarının maliyyə effektivliyinin artacağı gözlənir. İslahatların təfsilatlı nəticələri aşağıdakı kimi olacaq:

Müşahidə Şurası və ona hesabat verən komitələr də korporativ idarəetmə tələblərinə uyğun olacaq;

"Dəmir yolu haqqında" qanun layihəsi Milli Məclis tərəfindən qəbul ediləcək;

Borca xidmət əmsalı 1.1 çatacaq;

Müəssisənin Resurs Planlaması (ERP) sistemi tam fəaliyyət göstərəcək;

KPI-lar (əsas fəaliyyət göstəriciləri) müntəzəm qaydada izlənəcək və yenilənəcək;

Qabiliyyətlərin artırılması planı icra ediləcək;

Əsas funksiyanın ayrılmasını nəzərdə tutan korporativ restrukturizasiya planı və məsuliyyət zəncirinin aydın şəkildə formalaşdırılması icra olunacaq;

Zərərlə işləyən sərnişindaşıma xidmətləri, əməliyyat və texniki xidmət xərcləri üçün müqavilə əsaslı həllər əldə ediləcək;

2019-cu ilə qədər Aktivlərin idarə edilməsi iyerarxiyasının reallaşdırılması davam edəcək;

Əməliyyat səmərəliliyi səviyyəsi artacaq".

ADY rəsmisinin mövqeyi və qurumun rəsmi saytında yerləşdirilən məlumatdan görünür ki, yaxın zamanlarda kütləvi ixtisarların aparılacağı inandırıcı görünmür.

***Məhəmmədəli QƏRİBLİ***

*"Əminliklə deyirəm ki, KPMG adlı təşkilat bu yaxınlarda bizim qurumda heç bir audit yoxlaması aparmayıb"*



# Bizim vəkillərimizin üzvlük haqqını ödəməmək problemi var

**İnsan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi, bu zaman keyfiyyətli hüquqi yardımın göstərilməsi, hüququn aliliyinin təmin olunmasında vəkillik institutunun müstəsna əhəmiyyəti var. Azərbaycan üçün də davam edən dövlət quruculuğu və bunun tərkib hissəsi kimi hüquqi islahatlar çərçivəsində vəkillik institutunun inkişafı problemi aktualdır.**



*"Əksər vəkillər üzvlük haqqının baha olmasından narazıdır, bu səbəbdən də üzvlük haqqının aşağı salınmasını istəyirlər"*

Vəkillik institutunun inkişafı ilə bağlı postsovet məkanı ölkələri üçün xarakterik olan problemlər Azərbaycanda da müşahidə olunur. Şübhəsiz, sırf Azərbaycana aid obyektiv və subyektiv amillərlə bağlı problemlər və çətinliklər də mövcuddur. Bu problemlərdən biri də vəkillərin üzvlük haqqı ödəməməsidir. Bunu Vəkillər Kollegiyasının sədri Anar Bağırov

## *Əli Cəlilov: "O səbəblərdən biri yenicə fəaliyyətə başlamış vəkillərlə bağlıdır"*

media nümayəndələrinə açıqlamasında deyib. O bildirib ki, vəkillərin üzvlük haqqı ödəməməsi ilə bağlı problemlər olur: "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun tələblərinə görə, 6 aydan çox müddətdə üzvlük haqqı ödəməyən vəkillərin fəaliyyətinə xitam verilir. Onların xaric olunması ilə bağlı iddia da məhkəməyə təqdim olunur".

Məlumat üçün bildirək ki, vəkillərin üzvlük haqları minimum aylıq əməkhaqqının 40 faizi həcmində müəyyənləşdirilib. Onu da bildirək ki, "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli Sərəncamına əsasən, regionlarda vəkillərin fəaliyyətinin stimullaşdırılması, yeni qəbul edilmiş və gələcəkdə qəbul edilməsi nəzərdə tutulan vəkillərimizin və hüquqşünaslarımızın həvəsləndirilməsi məqsədilə iclasda 2019-cu ilin martından etibarən regionlarda fəaliyyət göstərən vəkillər tərəfindən 50 manat, Kollegiyaya yeni qəbul olunmuş vəkillər üçün fəaliyyətlərinin ilk ilində 40 manat və Bakıda fəaliyyət göstərən vəkillər tərəfindən isə 60 manat məbləğində üzvlük haqqı ödənilməsi qərara alınıb.

Vəkillər üzvlük haqqını nə səbəbdən ödəmirlər?

**Hüquqşünas Əli Cəlilov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün vəkillərin üzvlük haqqı ödəməsi sahəsində problem yaşanır:** "Bu danılmaz faktdır. Vəkillərin üzvlük haqqı ödəməməsinin müxtəlif səbəbləri var. O səbəblərdən biri yenicə fəaliyyətə başlamış vəkillərlə bağlıdır. Həmin vəkillər özlərini cəmiyyətə tanıdana qədər onların işi az olur. Bu səbəbdən də onlar üzvlük haqqı ödəməkdə çətinlik çəkirlər.

Həmçinin, səhhəti ilə bağlı, eyni zamanda, müəyyən müddətə ölkədə olmayan vəkillər də üzvlük haqqı ödəməkdə çətinlik çəkirlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, əksər vəkillər üzvlük haqqının baha olmasından narazıdır. Bu səbəbdən də vəkillər üzvlük haqqının aşağı salınmasını istəyirlər.

***Günel CƏLİLOVA***

# Bölgələrdə kosmetik əməliyyatın növbəti fəsadı - burun çürüdü...

**Sirr deyil ki, əhaliyə xidmət sahəsində son iyirmi ildə dinamik inkişaf edən sektorlardan biri də gözəllik mərkəzləridir. Lokal bazarda bu vəziyyətin yaranmasına KİV-in səbəbkar olduğu da iddia edilir. Müxtəlif televiziya proqramları, dəbli jurnallar, internet vasitəsilə dəb industriyasının intensiv reklamı aparılır.**



*"Bu proseduru peşəkar həkimlər etməlidirlər"*

Azərbaycan və xaricdə istehsal olunan müxtəlif brendlərin olması, yeni trendlər, eləcə də hər bir insanın gözəl və cazibədar görünmək kimi təbii istəyi iqtisadiyyatın gözəllik sektorunun inkişafına təsir göstərib. Bu təsirin nəticəsi kimi isə lokal bazarda gözəllik salonları, art-studiyalar və estetik klinikaların sayı artıb. Onlar bazarın tələblərinə vaxtında cavab vermək üçün rəqabətqabiliyyətlilik prinsiplərinə uyğun olmaq məcburiyyətindədirlər.

Təəssüf ki, Azərbaycanda gözəllik mərkəzlərinin fəaliyyəti qanunvericilik çərçivəsində deyil. Belə ki, bu sahəyə nəzarət edilmir, bəzi prosedurlar dönüşü olmayan nəticələrə gətirib çıxarır. Ekspertlər bu fəaliyyət sahəsinin qanuniləşdirilməsini dəfələrlə təklif ediblər. Buna baxmayaraq, estetik gözəllik mərkəzlərinin qurbanları günü-gündən artır. Əsasən "sallaq dodaq", burun korreksiyası zamanı yaranan çürümə hallarının sayı artmaqda davam edir.

Növbəti kosmetoloq

## *Aynurə Həsənova: "Kosmetoloq səhvi ucbatından xanımın burnunda çürümə gedib"*

qurbanı isə 29 yaşlı qadın olub. Həmin qadının burnunda kosmetoloqun səhvi ucbatından çürümə əmələ gəlib. Qadın bölgələrdən birində xidmət göstərən kosmetoloqa müraciət edərək burnuna filler dolğu etdirib. Lakin üç gün sonra burnunda qaralmalar olduğunu görüb. Kosmetoloquna zəng edib bu barədə məlumat versə də, heç bir kömək olmayıb və vəziyyəti daha da pisləşməyə doğru gedib. Kosmetoloquna zəng edib bu barədə desə də, o, "keçəcək, maz çək" deyib. Lakin 5 gün sonra burnunun çürüdüyünü görən qız kosmetoloqa gedib, o isə gördüyü mənzərədən dəhşətə gələrək, pasiyenti tez Bakıya göndərib.

Pasiyenti müalicə edən kosmetoloq Sevinc Abdullayeva sosial şəbəkə hesabından məlumat yayaraq bildirib ki, prosedur zamanı ucuz və sertifikatı olmayan preparatdan istifadə edilib: "Xanım burun quruluşunu düzəltmək üçün özünü kosmetoloq kimi təqdim edən qeyri-peşəkar insana müraciət edib. Mən təxmin edirəm bu hansı preparatdır. Ucuzdur və sertifikatı yoxdur. Əsas məsələ odur ki, həmin preparat (gel - red.) burun nahiyəsinə yeridilən zaman yanlışlıqla damara daxil olub. Bu zaman damar tutulub və burun nahiyəsində qan dövranı pozulub. Nəticədə isə qaralma başlayıb və qanqren olub".

Həkim bildirir ki, burnu çürüyən xanım ona güclü ağrılarla müraciət edib: "Ona ağrıların azalması üçün dərmanlar təyin etdik. İki həftə sonra burun nahiyəsindəki qaraltılar keçməyə başladı və burun əvvəlki rənginə qayıtdı. Hazırda burun dərisi üzərində çapıqlar qalmaqdadır, onun bərpası üçün müalicəmiz davam edir".

Ekspertlər bildirirlər ki, bu gün ölkədə peşəkar həkim kosmetoloqların sayı olduqca azdır. Tibbdən anlayışı olmayan istənilən şəxs gözəllik mərkəzində kosmetoloq kimi çalışır. Bu səbəbdən də naşı kosmetoloqların qurbanları artmaqda davam edir. Bu kimi hadisələrin qarşısını almaq üçün ekspertlər bu sahəyə dövlət tərəfindən nəzarət olunmasını təklif edirlər. Onların fikrincə, tibb təhsili olmayan, sadəcə bir-iki dəfə hər hansı kursda iştirak edən şəxslər kosmetoloq kimi çalışa bilməz.

**Dermatokosmetoloq-trixoloq, həkim Aynurə Həsənova "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, gənc xanımlar kosmetoloji prosedurlar üçün hər insana müraciət etməsinlər:** "Həkim olmayan insana burun etibar etmək olmaz. Hər reklam olunan videoya, şəklə, ucuz qiymətə aldanmasınlar. Elə bu xanım da qiymət ucuz idi deyə, həvəslənib və sonu da məlumdur. Xanımlar reklamlarda ucuz qiymətə hər hansı bir prosedurun edilməsinə aldanmasınlar. Əks halda, burun, dəri və dodaqlarını itirə bilərlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, fillerlə burun rinoplastikası manikür-pedikür deyil, saça boya qoymaq deyil. Bu proseduru peşəkar həkimlər etməlidirlər.

A.Həsənova qeyd etdi ki, kosmetoloq səhvi ucbatından xanımın burnunda çürümə gedib: "Özünü kosmetoloq adlandıran şəxs xanıma filleri səhv vurduğu üçün, qan dövranında problem yaranıb və nəticədə həmin nahiyənin qanla qidalanması dayanıb".

Həkim-kosmetoloq onu da vurğuladı ki, ən yaxşı dərman preparatı biliksiz əllərdə fəsada səbəb ola bilər.

***Günel CƏLİLOVA***

№ 70 (3968) ■ Qiymәti: 40 qәpik

# BAKI XӘBӘR

19 APREL 2019-cu il

www.baki-xeber.com

## "Nar" NETTY-2019 milli internet mükafatının әsas tәrәfdaşı seçildi

"Nar" Azәrbaycanda informasiya vә kommunikasiya texnologiyalarının inkişafına töhfә vermәkdә davam edir. Mobil operator növbәti dәfә NETTY-2019 Azәrbaycanın milli internet mükafatının keçirilmәsinә dәstәk olub.NETTY mükafatı hәr il әn yaxşı Azәrbaycan İT layihәlәrini, әhәmiyyәtli veb-resursları vә informasiya texnologiyaları sahәsindә peşәkarları müәyyәn edir vә onları mükafatlandırır.

Müsabiqә iştirakçılarının әrizә qәbulu 17 apreldәn 24 mayadәk http://www.netty.azsaytında davam edәcәk. 24-31 mayadәk mükafatın nominantlar siyahısını formalaşdıran Ekspert Şurasının vә Virtual münsiflәr heyәtinin sәsvermәsi başlayır. 01 iyunda isә NETTY Akademiyası nominantlar sırasından qaliblәrin müәyyәn edilmәsi üçün sәsvermәyә başlayacaq.

Әnәnәvi olaraq, müsabiqә çәrçivәsindә aşağıdakı nominasiyalar üzrә Azәrbaycanda әn yaxşı resurslar elan olunacaq: "Dövlәt", "İqtisadiyyat vә Biznes", "Tәhsil vә Elm", "Mәdәniyyәt vә Yaradıcılıq", "İnformasiya vә Xәbәrlәr", "Elektron Xidmәtlәr vә Ticarәt", "İlin İT-Hadisәsi" nominasiyaları vә s. Qeyd edәk ki, bu il dә müsabiqә "Nar"ın әsas tәrәfdaşlığı vә Nәqliyyat, Rabitә vә Yüksәk Texnologiyalar Nazirliyinin, Mәdәniyyәt Nazirliyinin rәsmi dәstәyi ilә keçirilir. "Nar" özünün çoxşaxәli korporativ sosial mәsuliyyәt (KSM) strategiyası çәrçivәsindә Azәrbaycanda İKT sahәsinin inkişafına vә müxtәlif innovativ texnologiyaların, o cümlәdәn startapların tәtbiqinә dәstәk olur.

NETTY Azәrbaycan milli internet mükafatı 2004-cü ildә tәsis edilib. Ümumdünya şәbәkәsinin milli seqmenti vә İKTbazarının inkişafı mәqsәdilә yaradılmış NETTY, informasiya texnologiyaları sahәsindә Azәrbaycanın ilk peşәkar mükafatıdır.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib."Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә mobil rabitә 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib.Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7400-dәn artıq baza stansiyası ilә 2,2 milyondan çox abunәçiyә yüksәkkeyfiyyәtli xidmәt göstәrir.

## Elan

Quliyeva Sona Vahib qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Әliyeva Nәrminә Rahim qızına mәxsus, Bakı şәhәri, Nәsimi rayonu, A.Sәhhәt küçәsi 37 ünvanında yerlәşәn qeyri-yaşayış sahәsinin çıxarışı, texniki pasportu vә digәr sәnәdlәri itdiyi üçün etibarsız sayılır.

Cavadov Mürsәl Ağaverdi oğlunun adına, Bakı şәhәri, Yasamal rayonu, Sadiq Dadaşov (Әhmәd Cәmil) küçәsi, ev 74, mәnzil 509 ünvanının qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Cәfәrova Mülayim İsmayıl qızının adına, Siyәzәn rayonu Yenikәnd kәndindә yerlәşәn torpaq sahәsinin (JN-237 kod 30505018 ) mülkiyyәtә verilmәsinә dair şәhadәtnamә itdiyi üçün etibarsız sayılır.



## İnsanların beyni getdikcә kiçilir...

**Bizim әcdadlarımız daha universal idilәr, hәtta neandertal insanın beyni belә, hansı ki, 40 min il әvvәl mövcud olublar, müasir insanın beynindәn iri idi. Bu fikri Lomonosov adına universitetin dosenti Stanislav Drobişevskiy bildirib.**

"Medicina.az" bildirir ki, hәlә 1980-ci ildәn alimlәr beyindә gedәn evolyusiyanı izlәyir vә beyindә gedәn kiçilmәnin 25 000 il әvvәl başladığını bildirirlәr. Belә ki, sonuncu neandertalların beyni 1500 kub sm.idisә, XXI әsr insanının beyni kişilәrdә 1425, qadınlarda 1350 kub sm olub. Alimlәr insan beyninin ölçüsünün böyüklüyünün onun ağıl vә dәrrakәsinin miqyasına tәsir etdiyini bilir. Bәs onda belә alınır ki, qәdim әcdadlarımız bizdәn daha ağıllı idi? Faktlar göstәrir ki, qәdim insanın yaşadığı mühit, şәrait onun beynindә daha çox yeniliklәr etmәsini, daha çox mәlumatın yadda saxlamasını tәlәb edirdi. Müasir insan isә yemәk, geyim, informasiya vә s-nı. hazır әldә edir. İndiki gәnclәr isә әllәrindә telefon heç çәtinlik çәkmәdәn lazımi informasiyanı tapır. Әgәr indi bir gәncdәn bir iki taxtadan mebel yığ, tәlәb etsәk, o, heç nә bacarmayacaq. İndiki nәsil әcdadlarına nisbәtәn beyni ilә az işlәyir, ona görә 25.000 ildir başlayan beyin kiçilmә prosesi davam edәcәk. Beyin çox enerji sәrf edәn orqandır. O bәdәndә 2% yer tutur, amma 25% enerji tәlәb edir. Qәdim insanların bәdәni dә güclü vә iri idi. Bu bәdәn beynin enerji tәlәbatını ödәyә bilirdi. Amma sonradan torpağa bağlanan, oturaq hәyata keçәn "Hopo Sapiens"in bәdәn vә әzәlә kütlәsi dә azalmağa doğru getdi. Bütün bunlar tәbii prosesdir vә labüddür. Elә indi dә köçәri hәyat sürәn xalqların beyni Avropa şәhәrindә yaşayan insanın beynindәn az da olsa böyükdür. Bunlara monqollar, buryatlar, qazaxlar aiddir.

## "Azercell"dәn rәqәmsallaşma strategiyası çәrçivәsindә daha bir yenilik

*"Azercell"in yeni layihәsi ilә nömrәlәrin sim-paketә bağlılığı aradan qaldırılıb*

**Ölkәnin mobil rabitә sahәsinin lideri "Azercell" rәqәmsallaşma strategiyası çәrçivәsindә daha bir yeniliyә imza atıb.**

Belә ki, yeni layihә sayәsindә nömrәlәrin sadә fiziki simpaketlәrә bağlılığı tamamilә aradan qaldırılıb. Aprel ayının 16-dan etibarәn "Azercell"in ÖM vә MX ofislәri, hәmçinin dilәr vә distributor şәbәkәsi nömrәlәrin satışını mәrkәzlәşdirilmiş www.azercellim.com onlayn bazasının kömәyilә hәyata keçirә bilir. Qeyd edәk ki, "Azercell" nömrәsi әldә etmәk istәyәn hәr bir kәs istәyinә uyğun olan müәyyәn bir nömrәni www.azercellim.com saytındakı axtarış bölmәsindәn tapa bilәr. Burada axtarış meyarlarına uyğun gәlәn nömrә kombinasiyaları tәklif edilir. Nömrәlәrin satışını onlayn baza vasitәsilә hәyata keçirmәyә imkan verәn yeni layihә nәticәsindә 1 milyondan çox mәrkәzlәşdirilmiş nömrә bazası bütün dilәr vә distributorlar üçün әlçatan olub. Önәmli olan mәqamlardan biri dә saytdakı nömrә bazasının mütәmadi olaraq yenilәnmәsidir. Yenilayihә nömrә paketlәnmәsindә xәrclәrin azaldılmasına, nömrә satışlarının artmasına, eyni zamanda şәffaf vә rәqәmsal biznes infrastrukturunun qurulmasına tәkan verir. Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.





**Qoç** - Bu gün әvvәlkilәr qәdәr yaxşı keçmәyәcәk. Amma bunun özündә tәriflәmәk üçün nәsә var. Mәsәlәn, ona görә ki, o, problem gәtirmәyәcәk vә ya qәribә görüşlәrlә sizi sevindirәcәk. Nә vaxtsa, sizә kömәk etmiş adamdan dәstәk almaq şansı var.



**Buğa** - Bu gün istәnilәn sәfәrlәr, ekskursiyalar üçün münasibdir. Yeni tәәssüratlar istәyirsiniz vә onları alacaqsınız. Sadәcә olaraq, tәşәbbüs göstәrmәk lazımdır. Gün intuisiyasını dinlәyәn Buğalara xoş sürprizlәr vә kәşflәr vәd edir.



**Әkizlәr** - Olduqca maraqlı, xoş vә asan gündür. İntuisiyanıza etibar edin - bu gün o, sizi olmaq istәdiyiniz yerә aparacaq. Gözlәnilmәz görüşlәr mümkündür. Onlardan biri taleyüklü ola bilәr.



**Xәrçәng** - Sәrfәli bazarlıqlar vә gәlirli investisiyalar vәd edәn uğurlu gündür. O, maliyyә mәsәlәlәrinin hәlli üçün münasibdir. Köhnә tanışlarınızın sizә tәzyiq göstәrmәyә cәhd edәcәyi, nәyәsә mәcbur etmәyә çalışacağı istisna deyil.



**Şir** - Bu gün әvvәlki iki gündәn daha әlverişlidir. Vaxtınızı yaxşı keçirәcәk, asanlıqla hәmfikir vә kömәkçilәr tapacaqsınız. Sәfәrlәrә yola düşmәk olar. Onlar asan keçәcәk vә sizi yormayacaq.



**Qız** - Gün hiss olunmadan keçәcәk, nә böyük sevinclәr, nә dә ciddi mәyusluqlar gәtirәcәk. Maraqlı işlәri seçin, onlarda uğur qazanacaqsınız. Hәyәcan vermәyәn işlәri isә tәxirә salın.



**Tәrәzi** - Tәlәskәnlikdәn uzaq durun. Bu gün hәr bir addım sakit götür-qoy tәlәb edir. Sәthi qәrarlar әksәr hallarda yanlış olacaq, dolama yollar isә sizi hәdәfә birbaşa yollardan daha tez çatdıracaq.



**Әqrәb** - Bu gün dayanmadan, özü dә bәzәn әlverişsiz şәraitdә işlәmәli olacaqsınız. Ona görә dә, diqqәtinizi cәmlәyin vә mәşğul olduğunuz işlәrә ciddi yanaşın. Sәfәrlәr lazımi nәticәni versә dә, çox vaxtınızı alacaq.



**Oxatan** - Gün dәyişikliklәrlә әlamәtdar olacaq: yeni maraqlar yaranacaq, köhnәlәri sıxışdıracaq, dәyәrlәrin yenidәn qiymәtlәndirilmәsi baş verәcәk. Sizi narahat edәn mәsәlәlәrlә bağlı açıq danışmaqdan çәkinmәyin: dәstәk sözlәri eşidәcәksiniz.



**Oğlaq** - Hәyatınızda baş verәnlәrin hamısına nәzarәt edә bilmirsiniz - bunu etiraf edin vә hәdәr mübarizәyә güc sәrf etmәyin. Köhnә planlan reallaşdırmağa növbәti dәfә cәhd etmәkdәnsә, yeni planlar qurmaq daha yaxşıdır.



**Dolça** - Yaxşı mәslәhәtlәr günüdür. Taleyin bu gün sizi qarşılaşdırdığı hәr kәsә qulaq asmaq lazımdır: yolunuza çox maraqlı insanlar çıxacaq. Onlardan hans ilәsә sizi ciddi münasibәtlәr bağlayacaq.



**Balıqlar** - Tanışlıqlarda ehtiyatlılıq tәlәb olunur: bu gün sizә qarşı o adamlar maraq göstәrirlәr ki, onlardan uzaq durmaq lazımdır. Şirnikdirici şeylәrә müqavimәt göstәrmәk çәtindir. Yaxınlarınızla ünsiyyәt sevinc bәxş edәcәk.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Bir dәqiqәyә suda әriyәn plastik yaradıldı

**Planetimizin plastik tullantılarla çirklәnmәsi son illәrdә qlobal problem halını alıb vә dünya ölkәlәrinin hәllli uğrunda çalışdığı mәsәlәyә çevrilib.**

İsrailli kimya mühәndisi Şeron Barak bir neçә yüz il әrzindә planetә zәrәr vuracaq plastik tullantıların bir dәqiqәdә suda әrimәsini tәmin edәn formul tapıb. Şeron Barakın kәşf etdiyi yeni plastik növlәri bir neçә dәqiqәdә suda hәll olunur. Әn maraqlısı da budur ki, suda hәll olunan plastik heç bir canlıya zәrәr vermir. Alimin iddiasına görә, onu hәtta yemәk dә olar. "Plastik sәtkanlar tәbiәtdә 50 il, plastik qablar isә 450 il qala bilәr. Mәn elә bir material hazırlamaq istәdim ki, o hәm plastikә bәnzәsin, ucuz başa gәlsin, hәm dә tәbiәtә zәrәr vurmadan suda әrisin. Hazırladığımız psevdoplastik 100 faiz ekoloji tәmiz materiallardan hazırlanıb, suda tamamilә hәll olunur vә tәbiәtin bir hissәsinә çevrilir". Mütәxәssis bildirib ki, psevdoplastikin hazırlanması heç dә mürәkkәb deyil. Bu günә qәdәr plastik materialların hazırlanması üçün istifadә olunan texnika Yer kürәsini çirklәnmәdәn qoruyacaq yeni növ materialın istehsalında da istifadә oluna bilәr.Onu qida mәhsullarının qablaşdırılmasında vә adi plastikin istifadә edildiyi bütün sahәlәrdә istifadә etmәk olar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.